Rəsmi dövlət qəzeti

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 28 (8051) ÇƏRŞƏNBƏ AXŞAMI, 5 fevral 2019-cu il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



# Yaddaşın təzələnməsi

## Yaddaşlarını itirənlər elə bilirlər ki, xalq da yaddaşsızdır

**Əmək fəaliyyətimə 1969-cu ildə fəhləlikdən başlamışam. Əmək kitabçamdakı ilk qeyd Ağdam Rayon Kommunal Təsərrüfatı Şöbəsinə məxsus "bordür" sexində "beton ələkçisi" işləməyimlə başlayır.**

### HALAL ÇÖRƏK VƏ ŞƏRƏFSİZ QAZANC

1974-cü ildə Azərbaycan Dövlət Universitetinin (BDU) Jurnalistika fakültəsini fərqlənmə diplomu ilə bitirdikdən sonra 8 ay iş tapmayanda onun 6 ayını "Azərbaycan" nəşriyyatının qəzet-jurnal sexində maşınlara çap məhsulları yükləyən fəhlə kimi işləmişəm.

*Bu gün də nə vaxtsa fəhlə işləməyimlə fəxr edirəm!*

*İlk dəfə qabarlı əlimlə maaş cədvəlinə qol çəkib əməkhaqqını alanda da qürur duymuşam!*

Çünki fəhlənin qazancı halal olur!

Çünki əl qabarı, alın təri ilə qazanılan pul təmiz pul sayılır!

**Ümumiyyətlə, hansı sahədə çalışmağından asılı olmayaraq zəhmətlə qazandığın əməkhaqqı təmiz və halaldır.**

*Vay o gündən ki, pulun oğurluqdan, onun-bunun cibinə girməkdən çıxa!*

*Vay o gündən ki, pulu dələduzluqla, adam aldatmaqla, haramzadalıqla qazanasan!*

*Vay o gündən ki, dolanışıq mənbəyin, çörəyin, ailənin saxlanma xərci vətənə xəyanətdən əldə etdiyin vəsaitdən ola!*

**Bundan böyük rəzillik tanımıram!**

**Bundan böyük şərəfsizlik ola bilməz!**

**Vətənə xəyanətdən qazanılan qrant gec-tez irinçirkə dönərək onu yeyənlərin burnundan gələcəkdir!**

Heç zaman xəyanətkar cəzasız qalmır!

Çünki Allah da belələrinə qənim olur!

### XALQIN AĞIR GÜNÜNDƏN DİVİDEND GÖTÜRƏNLƏR

1941-1945-ci illər müharibəsini görməmişəm.

Amma haqqında çox eşitmiş, oxumuş, müxtəlif filmlərə baxmışam.

O illər hamı bir məqsəd uğrunda çalışır, birlikdə işləyib mübarizə aparırdı.

Sovet hökumətinin qılıncının dalı və qabağının kəsən vaxtı başqa cür mümkün də deyildi!

Elə cəza mexanizmi vardı ki, heç kəs ondan yaxa qurtara bilməzdi!

*Amma xalqımızın ən ağır günü sayılan 20 Yanvar hadisələri yadımdadır!*

*Şuşanın işğalını heç zaman unutmaram!*

*Xocalı soyqırımının səhərisi günü - 27 fevral 1992-ci ildə mühasirədən çıxaraq Ağdama pənah gətirənlərin müsibət və görkəmini ömrüm boyu yaddan çıxarmaram!*

Qorbaçovun "yenidənqurma"sı dövründə dövlətin və xüsusi xidmət orqanlarının razılığı ilə müttəfiq respublikalarda "xalq cəbhəsi" adı ilə qurumlar yaradılırdı. Ora mahiyyətdən xəbərsiz qoşulanların böyük əksəriyyəti Vətənini, xalqını sevən, Dağlıq Qarabağa yönələn çirkin və məkrli niyyətlərlə barışmayan gənclər, tələbələr, ziyalılar, fəhlələr idi.

**25 may 1993-cü il, Bakı, Prezident Aparatının iclas zalı**

***Əli KƏRİMLİ, dövlət katibi:***

- Xalqın böyük narazılığına səbəb olan bir qüsurumuz da iqtisadi sahədə cinayətkarlığın baş alıb getməsidir. İqtisadi sahədə cinayətkarlıq elə bir vüsət alıb ki, dövlət əmlakının açıq-aşkar mənimsənilməsi, qeyri-qanuni yollarla xaricə satılması, həmin vəsaitin xaricdə saxlanılması və bir sözlə, dövlət əmlakının talan edilməsi adicə hala çevrilib.
- İqtisadiyyatın bütün sahələrində cinayətkarlıq iri miqyas alıb və hətta ayrı-ayrı cinayət faktları göstərir ki, hüquq mühafizə orqanlarının da müəyyən vəzifəli şəxsləri daxil olmaqla, artıq dövlət orqanlarının daxilində müəyyən cinayətkar təbəqələr formalaşmaqdadır.
- Bu gün Azərbaycanın maddi sərvətləri qaçaqmalçılıq yolu ilə talan olunur. Respublikanın on minlərlə iribuynuzlu mal-qarası, minlərlə texnikası və digər maddi sərvətləri sərhəddən qaçaqmalçılıq yolu ilə keçirilir. Bu, respublikanın iqtisadiyyatına sarsıdıcı zərbə vurur.
- Respublikada bütövlükdə nəinki qanunçuluq, hətta icra intizamı xeyli dərəcədə aşağıdır. Prezident fərman və sərəncamlarının icrası qənaətbəxş səviyyədə deyil. Bəzən elə ab-hava yaradırıq ki, qanunsuzluq, özbaşınalıq, hakimiyyətsizlik demokratiya ilə eyniləşdirilir. Çox təəssüf ki, hətta fərmanlar icra olunduğu təqdirdə belə istənilən nəticəni vermir. Qarşıya qoyulan nəticəyə nail olunmur.

***İxtiyar ŞİRİNOV, baş prokuror:***

- Respublikada mafioz qüvvələr get-gedə güclənməkdə, baş qaldırmaqdadır. Belə qüvvələr müxtəlif fırıldaqla dövlət əmlakını çapıb talayır, iqtisadiyyata böyük zərbə vururlar. Bakı, Gəncə, Sumqayıt və digər şəhərlərdə böyük mafiya fəaliyyət göstərir.
- 1991-ci illə müqayisədə indi qeydə alınan cinayətlərin sayı böyük sürətlə - 43,8 faiz artaraq 22450 hadisəyə çatmış, ağır cinayətlərin sayı isə iki dəfədən çox artmış və 6009 belə cinayət hadisəsi qeydə alınmışdır.
- Cinayət işlərinin qeydiyyatdan gizlədilməsi halları müəyyən edilmişdir. Qanunsuzluqların nəticəsidir ki, banditizmin 98, qəsdən adamöldürmənin 55,2, zorlamanın 52, dövlət əmlakının mənimsənilməsinin 61,8, soyğunçuluğun 79,7, quldurluğun 81,4 faizi açılmamış qalmışdır. Bu, prokuror nəzarətinin zəif olması deməkdir.
- Respublikamızda rüşvətxorluğun belə tüğyan etməsi, bu cür baş alıb getməsi hüquq mühafizə orqanlarının özünün həmin hallara şərait yaratması nəticəsində baş vermişdi. Dövlət aparatında, hüquq mühafizə orqanları arasında rüşvətxorlar həddindən artıq çoxdur. Biz hələ də belələrinə qarşı mübarizə aparmaqda zəiflik göstəririk. Dövlət aparatı özü iflic vəziyyətindədir, daha doğrusu, özü rüşvətxorluqla məşğul olur. Ona görə də rüşvətxorluqla məşğul olan dövlət aparatı rüşvətxorluqla mübarizə apara bilməz və biz bu məsələnin həllini dövlətdən başlamalıyıq".

***Abdulla ABDULLAYEV, daxili işlər naziri:***

- Cinayətkar əlaqələrin zorakılığı və qəddarlığı güclənir, silahlı formalarda cinayətkar terrorizm yayılır, iqtisadi sahələrin kriminallaşması davam edir, mütəşəkkil cinayətkarlığın və korrupsiyanın kriminal-siyasi təhlükəsi böyüyür.

***İlyas İSMAYILOV, ədliyyə naziri:***

- Cinayətkarlar öz içimizdədir. Ona görə də onun dağıdıcı qüvvəsi çox böyükdür. Ümumiyyətlə isə ölkədəki cinayətkarlıqla bağlı mübarizədə biz heç nə edə bilməmişik. Cinayətkarlıq bizim fəaliyyətimizi üstələyir, bu, çox acı gerçəklikdir.
- Hakimiyyətimiz dövründə rüşvətxorluq kommunistlərin dövründəkindən dəfələrlə çoxalıb. Bu, faktdır. Vəzifəli şəxslər içərisində təmizləmə aparılmalıdır.
- İqtisadi sahədə böyük dağıntılar gedir. Guya ki, apardığımız "mübarizə" ilə əslində cinayətkarları cinayətlərə daha da həvəsləndiririk. Məhkəmələr, doğrudan da, işləmir. Bu sistemdə yoxlama aparmışıq, adamı dəhşət bürüyür. Adi fakt: məhkəmə prosesi olmadan hökm çıxardırlar. Bu, ən böyük biabırçılıqdır.

***Əbülfəz ELÇİBƏY, prezident:***

- Respublikada talançılıq baş alıb gedir. Nizami demişkən, əgər oğurlanan maldan gözətçinin xəbəri yoxdursa, demək, gözətçinin orada əli var. Burada milis orqanıdır, prokuror orqanıdır və bir də məhkəmə orqanıdır. Burada oturan orqanların əli həmin cinayətdə var.
- Rüşvət alanda milyonlarla dollar alırsınız, alırsan, heç olmasa yüz minlərlə al, beş manat al, insafla al.
- Biz, doğrudan da, dövlətimizi itirəcəyik. İtirməyəcəyik, bu dövlət yenə də bir vaxt yaşayacaq. Amma biz qanın içində gedəcəyik.

Hamısı qeyrətli, yüksək mənəviyyata malik insanlardı.

Xüsusi tapşırıq yerinə yetirənlər də vardı...

Mərdlərin çoxu sinəsini güllə qabağına verdi, şəhid getdi, sonadək inam və şücaətlə mübarizə aparanlar da oldu...

**Amma bu mübarizədən dividend götürənlər, müxtəlif üsullarla vəzifə kürsüsü ələ keçirənlər, hərəkatın təmiz və müqəddəs adına ləkə gətirənlər də tapıldı. Sonradan "lider"lərə çevrilənlər 20 Yanvarda xalqı aldatdılar:**

- *"barrikadalar qursaq, sovet ordusu şəhərə girə bilməz", - dedilər;*
- *cavanlara armatur parçaları paylayaraq tankların qabağına göndərdilər;*
- *"Şmidt zavodunda avtomat hazırlanır, indi gətirib paylayacağıq, mövqeyinizdən tərpənməyin", - söylədilər.*

**Özlərinin bircə nəferinin burnu qanamadı!**

**Qaçıb hərəsi bir yerdə gizləndi, canını vəzifə almaq üçün qorudu!**

**Sonra həmin vəzifələri aldılar da!**

1992-ci ilin martında Laçını işğal təhlükəsi gözləyən zaman oranı müdafiə edən əsgərləri və zirehli texnikanı Bakıya çağıraraq parlamenti zor gücünə ələ keçirdilər, deputatları bir gecə səhərə kimi iclas zalında girov saxladılar...

*Şuşa işğal olunanda müdafiə və daxili işlər nazirləri AXC-nin kadrları idi.*

*Nə Rəhim Qazıyev təpəsinə güllə çaxdı, nə də general Tahir Əliyev cəzalandırıldı.*

*Kəlbəcəri işğal təhlükəsi gözləyəndə daxili işlər naziri İsgəndər Həmidov heç bir təhlükə gözlənilmədiyini bəyan edərək adamları öz vətəninə "kavaf yeməyə" çağırdı...*

Həmin İsgəndər Həmidov ki, türmədəkilərin əlinə avtomat verib onlardan "qoşun" düzəldərək torpaqların müdafiəsinə göndərmişdi. Onların da bir qismi həmin avtomatlarla Bakıda soyğunçuluğa və reketçiliyə qurşanmışdı.

Həmin İsgəndər Həmidov ki, özünü demokrat adlandırsa da, qəzet redaktorunu maşının yük yerinə basaraq həbsxanaya aparmışdı.

Həmin İsgəndər Həmidov ki, redaksiyaya gələrək onu tənqid edən "Zerkalo" qəzetinin müxbirinə tənqidi yazının verildiyi qəzet nömrəsini zorla yedizdirmişdi.

**Görünür, hələ də köhnə havası başındadır!**

**Tribuna üçün bərk darıxıb!**

"Sovet tankının qabağında duranlar rüşvətin qabağında dayana bilməlidir" - bu sözlər də İsgəndər Həmidova məxsusdur.

Xalqın ağır günündən istifadə edərək onun adı ilə vəzifə qazananlar xalqı yaman günə qoydular!

### OLANLARIN HEÇ BİRİNİ UNUTMAMIŞIQ

**"Meydan qəhrəmanları"nın - AXC-nin iqtidar dövrü çox maraqlı və qəribə keçdi.**

**Vəzifələri yaxşı bölə bilmədiklərindən "xalq hərəkatı" adlandırdıqları qurumu parçalamağa, hərə özünə yeni bir partiya yaratmağa başladı.**

*Müsavat güclü çıxdığından AXC-nin qalan hissəsi ilə birlikdə iqtidara yiyələndi.*

*Ardı 3-cü səh.*

# Azərbaycan dünya kosmik ailəsinin nüfuzlu üzvüdür

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 4-də Beynəlxalq Astronavtika Federasiyasının icraçı direktoru Kristian Faythingeri qəbul edib.



AZƏRTAC xəbər verir ki, Beynəlxalq Astronavtika Federasiyasının icraçı direktoru Kristian Faythinger dövlətimizin başçısına onu qəbul etdiyinə görə minnətdarlığını bildirdi. Kristian Faythinger ölkəmizə ilk dəfə səfərindən məmnunluğunu ifadə edərək, Bakıda gördüyü inkişaf proseslərinin onda dərin təəssürat yaratdığını dedi. Rəhbərlik etdiyi təşkilatın fəaliyyəti barədə məlumat verən Kristian Faythinger bildirdi ki, bu gün Beynəlxalq Astronavtika Federasiyasına 68 ölkədən 368, o cümlədən Azərbaycandan olan 3 təşkilat daxildir. Qonaq rəhbərlik etdiyi qurumun hər il Beynəlxalq Astronavtika Konqresini keçirdiyini vurğuladı və belə bir önəmli faktı xatırlayaraq dedi ki, bu cür tədbirlərdən biri 1973-cü ildə Bakıda keçirilib. Daha sonra o, Azərbaycanda kosmik sənayenin uğurla inkişaf etdiyini və bu sahədə ölkəmizin son vaxtlar əldə etdiyi nailiyyətlərin beynəlxalq səviyyədə yüksək qiymətləndirildiyini diqqətə çatdırdı.

Dövlət başçısı 1973-cü ildə ulu öndər Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrdə Beynəlxalq Astronavtika Federasiyasının Bakıda keçirilən XXIV konqresini məmnunluqla xatırladı və o zaman həmin tədbirin beynəlxalq əhəmiyyətli bir hadisəyə çevrildiyini, konqresdə məşhur kosmonavtların və astronavtların iştirak etdiyini vurğuladı. Azərbaycanda kosmik sənayenin inkişafına toxunan Prezident İlham Əliyev bu sahənin ölkədə ən prioritet istiqamətlərdən biri olduğunu dedi və Azərbaycanın dünya kosmik ailəsinə daxil olmasını məmnunluqla qeyd etdi.

Söhbət zamanı əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.



# Özümü bu qədər güclü hiss etməmişdim

## Aqşin ORUCLU: "Prezident İlham Əliyevin məni bağrına basıb görüşməyi bütün şəhid əmanətlərinə olan ehtiram və qayğının təzahürü idi"

"Mən Qarabağı görmədən, atamın doğma eli Ağdamı görmədən böyüdüm. Amma həmişə vətənsizliyin, işğal altında olan torpaqlarımızın həsrətini kiçik ürəyimdə böyüdərək yaşadım. Atam hərbçi idi! Həm də adi hərbçi yox! Doğma elini itirmiş, anasını, yaxınlarını şəhid vermiş bir Qarabağ qazisi idi. Eyni zamanda səngər komandiri idi. Bizim ən xoş günlərimiz atamızla birgə əsgərlərin yanında keçən zamanlarımız oldu. Bu görüşlər bizim əyləncəmiz idi".

Şəhid polkovnik-leytenant Rauf Orucovun oğlu Aqşin Orucludur bu fikirlərin müəllifi...

Onun bu sözlərində yalnız ata itkisinin məşəqqəti yox, ən əsası, şəhidlik zirvəsinə yüksəlmiş bir KİŞİnin övladı olmağın qüruru da ifadə olunub...

*Ardı 4-cü səh.*

# 170-dən çox ölkə, 3088 çeşiddə məhsul




## Azərbaycanda ixrac idxalı 8,6 milyard dollar üstələyir

**Ötən il Azərbaycanın idxal-ixrac əməliyyatları bir qədər də güclənib. Bu barədə İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin "İxrac İcmalı"nın 2019-cu ilin yanvar sayında məlumat verilir.**

### İxrac 36 faiz artaraq 19 milyard dollara çatıb

İcmalın bu sayında göstərilir ki, ötən ilin 12 ayı ərzində qeyri-neft sektoru üzrə ixrac 1 milyard 689 milyon dollar təşkil edib. 2017-ci illə müqayisədə 2018-ci ildə qeyri-neft sektoru üzrə ixrac 151 milyon dollar və ya 10 faiz artıb. Ötən il ərzində Rusiyaya 619,2 milyon, Türkiyəyə 344,9 milyon, İsveçrəyə 135,4 milyon, Gürcüstana 124,5 milyon, Qazaxıstana 44,6 milyon dollar dəyərində qeyri-neft sektoruna aid mal ixrac edilib. 2017-ci illə müqayisədə 2018-ci il ərzində Rusiyaya qeyri-neft ixracı 12, Türkiyəyə 18, Qazaxıstana 36 faiz artmışdır.

Görülmüş tədbirlər nəticəsində 2018-ci ildə qeyri-neft ixracı 9,8, o cümlədən kənd təsərrüfatı və emalı məhsullarının ixracı 13,8, sənaye məhsullarının ixracı 6,2 faiz artıb. Ötən il Azərbaycandan 3088 çeşiddə məhsul ixrac edilib. 2018-ci ildə xarici ticarətdə müsbət saldo 8,6 milyard dollar təşkil edib, ixrac 36 faiz artaraq 19 milyard dollara çatıb.

### Pomidor ixracda yenə də liderdir

2018-ci ilin yanvar-dekabr ayları ərzində ixrac edilən qeyri-neft sektoruna aid malların siyahısında pomidor (177,4 milyon dollar) birinci, qızıl (sikkə kəsilməsində istifadə olunmayan, digər emal olunmamış formalarda - 118 milyon dollar) ikinci olub.

*Ardı 5-ci səh.*

# "Originar"

## Narımız bu ticarət markası altında dünya bazarına çıxır

**Ölkəmizdə uğurlu fəaliyyəti ilə seçilən çoxsaylı sahibkarlıq subyektlərinin yaradılması davamlı xarakter almaqdadır. İqtisadiyyatın digər sahələri ilə yanaşı, aqrar sektorda, xüsusən də meyvəçilik və tərəvəzçilikdə müvafiq istiqamət üzrə ciddi addımlar atılır.**

Vacib olanı isə istehsal edilən məhsulun təkcə daxili bazarda satışı deyil, eyni zamanda ixracyönümlülüyünün təmin edilməsi ilə xaricə çıxışına nail olunmasıdır. "Made İn Azerbaijan" brendinin yaradılması və onun tanıdılması, realizə edilməsinə şərait yaradılması istehsalçıların əl-qolunu daha da açmaqdadır. Hazırda iş adamlarımız dünyanın ayrı-ayrı ölkələrinə müxtəlif adda və çeşiddə məhsul ixrac edirlər.

### 421 hektardan ibarət nar bağı

Belə qurumlardan biri də Kürdəmir rayonunun Karrar kəndinin inzibati ərazisində fəaliyyət göstərən "MARS FK LTD" Məhdud Məsuliyyətli Müəssisədir. Müəssisənin rəhbəri Yusif Axundov deyir ki, 2012-ci ildə ümumi sahəsi 421 hektardan ibarət nar bağı salıblar.

Burada Azərbaycan, Türkiyə və İsrail aqronomlarının birgə əməyi, həmçinin yeni nəsil kənd təsərrüfatı texnikasından istifadə yüksək keyfiyyətli məhsul almağa imkan verir. Şirkətdə 20 nəfər daimi iş yeri ilə təmin olunub. Bundan əlavə, müəssisədə məhsul yığımı mövsümü olmayanda gündəlik 60 günəmuzd işçi çalışır. Məhsul tədarükü vaxtı isə bu rəqəm təxminən 200 nəferi keçir.

*Ardı 5-ci səh.*



# Malayziyanın XVI Ali Başçısı Əlahəzrət əl-Sultan Abdullah Riayatuddin əl-Mustafa Billah Şah ibni Sultan Hacı Əhməd Şah əl-Mustain Billaha

Əlahəzrət!

Malayziyanın XVI Ali Başçısı seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan ilə Malayziya arasındakı münasibətlər xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da dostluq və əməkdaşlıq zəminində inkişaf edəcək və genişlənəcəkdir.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Malayziya xalqının rifahı naminə qarşıdakı fəaliyyətinizdə uğurlar arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 4 fevral 2019-cu il*

# Seyid Şuşinskinin 130 illiyinin qeyd edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

2019-cu ilin aprel ayında Azərbaycan muğam sənətinin görkəmli nümayəndəsi, tanınmış musiqi xadimi və pedaqoq, respublikanın xalq artisti Seyid Şuşinskinin (Mir Möhsün ağa Seyid İbrahim oğlunun) anadan olmasının 130 illiyi tamam olur.

Qarabağ xanəndəlik məktəbinə mənsub qüdrətli sənətkar Seyid Şuşinski xalqımızın mənəvi dünyasının formalaşmasında müstəsna əhəmiyyət daşıyan qədim muğam ənənələrimizi layiqincə qoruyub yaşatmışdır. Geniş diapazonlu nadir, ecazkar səsə və yüksək səhnə mədəniyyətinə malik böyük muğam ustası təkrarolunmaz mükəmməl ifaçılıq nümunələri ilə Azərbaycanın musiqi xəzinəsini daha da zənginləşdirmişdir. Seyid Şuşinski müəllim kimi uzun illər ərzində istedadlı musiqiçilərin yetişdirilməsi sahəsində də təqdirəlayiq fəaliyyət göstərmişdir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan musiqi mədəniyyətinin inkişafı və təbliğində mühüm xidmətlərini nəzərə alaraq ustad sənətkar Seyid Şuşinskinin anadan olmasının 130-cu ildönümünün qeyd olunmasını təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi xalq artisti Seyid Şuşinskinin 130 illiyinə həsr olunmuş tədbirlər planını hazırlayıb həyata keçirsin.
2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 4 fevral 2019-cu il*

# Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin fəaliyyətinin təmin edilməsi ilə bağlı tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan müxtəlif sivilizasiyaların qovuşduğu məkan olaraq, əsrlərboyu milli-mədəni rəngarənglik mühitinin formalaşdığı, ayrı-ayrı millətlərin və konfessiyaların nümayəndələrinin sülh, əmin-amanlıq, qarşılıqlı anlaşma və dialoq şəraitində yaşadığı diyar kimi tanınmışdır. Ötən dövr ərzində Azərbaycan Respublikasında multikulturalizm ənənələrinin qorunub saxlanması və daha da inkişaf etdirilməsi istiqamətində mühüm tədbirlər həyata keçirilmişdir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycanda multikulturalizm ənənələrinin daha geniş təbliğ olunması məqsədilə **qərara alıram:**

1. Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin 2019-cu ildə fəaliyyətinin təmin olunması və nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi məqsədilə Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinə 800,0 (səkkiz yüz) min manat ayrılsın.
2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 4 fevral 2019-cu il*

# Azərbaycan Respublikasının şəhər və rayonlarında çoxmənzilli binaların dam örtüklərinin təmiri ilə bağlı əlavə tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycanın 5 şəhər və rayonunda 379 çoxmənzilli binanın dam örtüyünün təmiri məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 15 yanvar tarixli 890 nömrəli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində digər layihələr üzrə dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.65-ci bəndində göstərilmiş məbləğin 21 685 830 (iyirmi bir milyon altı yüz səksən beş min səkkiz yüz otuz) manatı bu sərəncama əlavə edilmiş siyahıya uyğun olaraq şəhər, rayon icra hakimiyyətlərinə ayrılsın.
2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.
3. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 4 fevral 2019-cu il*

*Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 4 fevral tarixli Sərəncamına Əlavə*

## Dam örtüklərinin təmiri nəzərdə tutulmuş çoxmənzilli binaların şəhər və rayonlar üzrə bölgüsünə dair siyahı

| Sıra №-si | Şəhər, rayon | Dam örtüklərinin təmiri nəzərdə tutulmuş 3, 4 və 5 mərtəbəli çoxmənzilli binalar | | |
|---|---|---|---|---|
| | | Sayı, ədəd | Sahəsi, kv.m. | Ayrılan vəsait, min manat |
| 5 şəhər və rayon üzrə cəmi | | 379 | 434 879,0 | 21 685,83 |
| o cümlədən: | | | | |
| 1. | Gəncə | 50 | 49449,0 | 2472,57 |
| 2. | Sumqayıt | 263 | 291406,0 | 14007,43 |
| 3. | Şəki | 28 | 42119,0 | 2483,07 |
| 4. | Şirvan | 30 | 40048,0 | 2053,23 |
| 5. | Qazax | 8 | 11857,0 | 669,53 |

# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Möhtərəm cənab Prezident!

Qafqaz xalqları Ali Dini Şurasının və bölgə dindarlarının, dini icma və konfessiya rəhbərlərinin arzu və iradəsini ifadə edərək Sizə - Azərbaycan xalqının ləyaqətli oğluna və dünyanın tanınmış siyasi xadiminə salamlarımızı və təşəkkürlərimizi ünvanlamaqdan qürur duyuruq. Bu təşəkkür borcumuz Zati-alinizin şəxsi yardımı sayəsində yenidən bərpa olunmuş Vladiqafqaz Cümə məscidi dindarları, bütün Osetiya-Alaniya xalqının son günlərdə yaşadığı böyük sevinc və minnətdarlığın təzahürüdür. Qafqaz Xalqları Ali Dini Şurası üzvlərinin müraciətinə olan yüksək diqqəti, Sizin milli-mədəni dəyərlərə verdiyiniz önəmi yalnız Azərbaycanda deyil, dünyanın bir çox nöqtələrində ümumbəşəri, dini-mənəvi irsə qayğı və himayənizi yüksək qiymətləndirir, bununla bağlı bölgə dindarlarının ümumi minnətdarlıqlarını zati-alinizə yetirmək məsuliyyətindən şərəf hissi keçiririk.

Zati-aliləri, Sizin multikulturalizm ideyasının fəal təbliğinə xidmət edən, qlobal miqyasda dəyər kəsb edən humanitar təşəbbüsləriniz bəşəriyyətin ümumi inkişafına, sülh və dinc birgəyaşayış amallarına xidmət edir. Dünya iqtisadi böhran, siyasi gərginlik, mənəvi səciyyəli problemlər yaşadığı bir dövrdə Azərbaycan Prezidenti bütün bunların fövqündə dayanmaq qüdrəti nümayiş etdirir, Beynəlxalq Humanitar forumlar, Mədəniyyətlərarası Dialoq forumları keçirərək Azərbaycandan bütün dünyaya multikulturalizm ideyalarını təbliğ edir, millətlər, dinlərarası dialoqu təşviq edir, ədalətə və beynəlxalq hüquqa söykənən dünya düzəninə çağırışlarını bəyan edir. Uca Allahın bəyəndiyi multikultural həyat tərzini yaşayan və təbliğ edən cəmiyyətin O Bir Olan Yaradanımızın nəzərində dəyəri yüksəkdir.

Azərbaycandakı din-dövlət münasibətlərinin yüksək səviyyəsi, multikultural, milli, dini tolerantlıq ənənələri müdrik siyasət nümunəsi kimi təkcə Qafqaz bölgəsində deyil, bütün beynəlxalq aləmdə örnək olaraq dəyərləndirilir. Bu siyasətin təməli Qafqaz xalqlarının mənəvi lideri, ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş və zati-alinizin səyləri ilə uğurla davam etdirilir.

Zati-aliləri, Sizin maddi-mənəvi yardımınız sayəsində yenidən bərpa edilən 110 illik tarixə malik Vladiqafqaz məscidi təkcə Şimali Osetiya-Alaniya Respublikasının deyil, bütün Qafqazda İslam mədəni irsinin əsas simvollarından biri hesab edilir. Maddi sərvətləri ilə yanaşı, mənən zəngin insan - Azərbaycan xalqının oğlu Murtuza Muxtarovun sayəsində ucalan bu məscid bölgədəki müsəlman icmasının cümə məscidi olmaqla yanaşı, Şimali Osetiyanın mədəni-mənəvi mərkəzi olaraq tanınıb. Zati-alinizin mənəvi irsimizə sahib çıxaraq, 1996-cı ildə terrorçular tərəfindən törədilən partlayış zamanı xeyli zərər görmüş Muxtarov məscidini bərpa etdirməsi İslam həmrəyliyinin bariz nümunəsi olaraq, müqəddəs dinimizə olan dərin ehtiramın təzahürü və Allah Nəzərində savab əməldir. Qurani-Kərimdə buyurulduğu kimi, "Allahın məscidlərini yalnız Allaha və qiyamət gününə iman gətirən... və Allahdan başqa heç kəsdən qorxmayanlar inşa edə bilərlər. Məhz onlar doğru yola yetişənlərdəndir!" (Tövbə, 18).

Bu gün sayənizdə yeni həyat qazanmış Muxtarov məscidi Vladiqafqaz şəhərinin gözəl rəmzi, Şərq memarlığının nadir incisi, mənəvi vəhdət rəmzi, xalqlar arasında dostluq abidəsi, Şimali Osetiya müsəlmanlarının əsas ibadətgah yeri olmaqla yanaşı, həm də Azərbaycan Prezidenti İlham Əliyevin böyük humanistliyinin, mesenatlığının bariz nümunəsidir.

Zati-aliləri, biz, Qafqazın din xadimləri, Sizin hər zaman xüsusi önəm verdiyiniz və şəxsən dəstəklədiyiniz dinlərarası dialoq, multikulturalizm kimi bəşəri əhəmiyyətli ideyaları dünyada təbliğ etməkdən böyük qürur duyuruq. Zati-alinizin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın dəstəyi sayəsində dünyanın ən müxtəlif məkanlarında tikilən, bərpa edilən mədəni-mənəvi məbədlər ümumbəşəri irsə dəyərli töhfələrdir. Sizin əməli addımlarınız və qlobal əhəmiyyətli təşəbbüsləriniz sayəsində əminik ki, bizim hər zaman təbliğ etdiyimiz və dünyaya multikulturalizmin bariz nümunəsi kimi təqdim olunan Azərbaycan modeli sivilizasiyalararası dialoqun inkişafına, qarşılıqlı anlaşma və dostluq kimi bəşəri dəyərlərin təşviqi və təkamülünə öz töhfəsini verəcəkdir.

Zati-aliləri, fürsətdən istifadə edərək, böyük ehtiram hissi ilə Sizə və ailənizə uzun ömür, cansağlığı, şərəfli fəaliyyətinizə uğurlar arzulayırıq. Biz, Qafqaz Xalqları Ali Dini Şurasının üzvləri, zati-alinizin Azərbaycan xalqının daha xoşbəxt gələcəyi, Qafqaz bölgəsinin ümumi mənafeləri, habelə bəşəriyyətin sabitlik və inkişafı üçün önəm kəsb edən fəaliyyətini hər zaman bəyənir və dəstəkləyirik. Ümidvarıq ki, bütün münaqişə bölgələrinin, o cümlədən əzəli Azərbaycan torpağı olan Qarabağın problemi tezliklə sülh yolu ilə öz ədalətli həllini tapacaqdır. Əminik ki, Uca Yaradanın köməyi və Sizin rəhbərliyinizlə Azərbaycan xalqı dünya miqyasında daha böyük uğurlara imza atacaq, Zati-alinizin təkcə Azərbaycan deyil, bütün Qafqaz xalqlarının mənafeyinə xidmət edən səyləri zəfərlə davam edəcəkdir. Bu, bizim bölgə dindarları və din xadimləri olaraq Sizin üçün dualarımızdır! Uca Yaradan hər zaman yardımçınız olsun! Amin!

Dərin hörmət və ehtiramla,

**Qafqaz Xalqları Ali Dini Şurasının üzvləri:**

***Şeyxülislam Allahşükür PAŞAZADƏ,***
***Qafqaz Müsəlmanları İdarəsinin sədri,***
***Qafqaz Xalqları Ali Dini Şurasının sədri***

***İsmayil BERDİYEV,***
***Şimali Qafqaz Müsəlmanları Əlaqələndirmə Şurasının sədri, Rusiya Federasiyasının Qaraçay-Çərkəz Respublikasının müftisi***

***Salax MEJİYEV,***
***Rusiya Federasiyası Çeçenistan Respublikasının müftisi***

***Əhməd ABDULLAYEV,***
***Rusiya Federasiyası Dağıstan Respublikasının müftisi***

***Həzrətəli DZASEJEV,***
***Rusiya Federasiyası Kabardino-Balkar Respublikasının müftisi***

***Hacımurad QATSALOV,***
***Rusiya Federasiyası Şimali Osetiya (Alaniya) Respublikasının müftisi***

***Soltanəhməd KAROLAYEV,***
***Rusiya Federasiyası Kalmıkiya Respublikasının müftisi***

***Askarbiy KARDANOV,***
***Rusiya Federasiyası Adıgey və Krasnodar Respublikasının müftisi***

***Muhammad RAXİMOV,***
***Rusiya Federasiyası Stavropol diyarının müftisi***

# V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun keçirilməsinə dair Tədbirlər Planı təsdiqlənib

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri Ramiz Mehdiyevin sərəncamı ilə Bakıda V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun keçirilməsinə dair Tədbirlər Planı təsdiq edilib.

AZƏRTAC xəbər verir ki, sərəncamda Tədbirlər Planında nəzərdə tutulan işlərin yerinə yetirilməsi üçün müvafiq qurumlara tapşırıqlar verilib.

Qeyd edək ki, V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu bu il mayın 2-3-də keçiriləcək.

# Ermənistan silahlı qüvvələrinin bölmələri sutka ərzində atəşkəs rejimini 25 dəfə pozub

Ermənistan silahlı qüvvələrinin bölmələri sutka ərzində cəbhənin müxtəlif istiqamətlərində atəşkəs rejimini 25 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistanın Noyemberyan rayonunun Dovex, Voskevan kəndlərində və İcevan rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Quşçu Ayrım və Qızılhacılı kəndlərində yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Çiləbürt, Ağdam rayonunun Qaraqaşlı, Mərzili, Füzuli rayonunun Aşağı Veysəlli, Qobu Dilağarda, Qaraxanbəyli kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər və Ağdam rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə məruz qalıb.

# Səudiyyə Ərəbistanı ilə uğurlu əməkdaşlıq davam etdirilir

## Azərbaycanın və Səudiyyə Ərəbistanının Ədliyyə nazirlikləri arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumu imzalanıb

Azərbaycanda İslam və ərəb dünyası ilə ikitərəfli münasibətlərin inkişafına xüsusi əhəmiyyət verilir, Səudiyyə Ərəbistanı Krallığı ilə müxtəlif, o cümlədən hüquqi sahədə səmərəli əməkdaşlıq həyata keçirilir. Krallığın hüquqşünaslarından ibarət geniş tərkibli nümayəndə heyətləri Azərbaycana səfərlər edib, ölkəmizin məhkəmə-hüquq islahatlarına və müsbət təcrübəsinə maraq göstərilib. Həmçinin ötən il Krallığın ədliyyə naziri müavininin respublikamıza səfəri zamanı iki nazirlik arasında əməkdaşlıq haqqında hazırlanmış Anlaşma Memorandumunun layihəsi razılaşdırılıb.

Həmin sənədin imzalanması məqsədilə Səudiyyə Ərəbistanı Krallığı ədliyyə nazirinin dəvətinə əsasən, Azərbaycanın ədliyyə naziri, Məhkəmə-Hüquq Şurasının sədri Fikrət Məmmədov, Ali Məhkəmənin sədri Ramiz Rzayev və Ədliyyə Nazirliyinin məsul şəxslərindən ibarət nümayəndə heyəti bu günlərdə Səudiyyə Ərəbistanı Krallığında səfərdə olub.

Ədliyyə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, səfər zamanı İki Müqəddəs Ocağın Xadimi, Səudiyyə Ərəbistanının Kralı Salman bin Əbdüləziz Al Səud Azərbaycan nümayəndə heyətini qəbul edib.

Azərbaycan ilə əməkdaşlığın inkişafının Səudiyyə Ərəbistanı üçün prioritet olduğunu bildirən Kral hökumətlərarası komissiyanın səmərəli fəaliyyətini məmnuniyyətlə qeyd edib. Kral Salman bin Əbdüləziz Al Səud bu səfərin ikitərəfli əlaqələrin dərinləşdirilməsinə töhfə verəcəyini, habelə ölkəsinin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində Azərbaycanın haqlı mövqeyini tam dəstəklədiyini vurğulayaraq regionda sülhün bərqərar olmasında maraqlı olduğunu bildirib.

Ədliyyə naziri Fikrət Məmmədov yüksək diqqətə görə minnətdarlığını bildirərək Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin məktubunu və salamlarını çatdırıb. Nazir iki ölkə arasında hərtərəfli münasibətlərin inkişafını qeyd edərək ədliyyə orqanları arasında da əlaqələrin genişləndirildiyini, habelə ölkəmizdə Krallığın zəngin tarixinə və qədim mədəniyyətinə böyük maraq göstərildiyini vurğulayıb.

Kral Salman bin Əbdüləziz Al Səud Azərbaycanın dövlət başçısına salamlarına görə təşəkkürünü bildirib, onun da səmimi salamlarını Prezident İlham Əliyevə çatdırmağı xahiş edib.

Səfər çərçivəsində Səudiyyə Ərəbistanı Krallığının ədliyyə naziri ilə görüş keçirilərək ölkələrimiz arasında dostluq və əməkdaşlıq münasibətlərinin inkişafında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və İki Müqəddəs Ocağın Xadimi, Səudiyyə Ərəbistanının Kralı Salman bin Əbdüləziz Al Səudun siyasi iradəsi vurğulanıb. Həmçinin qarşılıqlı fəaliyyətin perspektivləri müzakirə olunub, hər iki dövlətin ədliyyə və məhkəmə sistemləri, Məhkəmə-Hüquq şuralarının fəaliyyəti barədə geniş fikir mübadiləsi aparılıb.

Səudiyyə Ərəbistanının ədliyyə naziri Şeyx Dr. Valid bin Muhammad Al-Samaani respublikamızın sürətli tərəqqisi barədə məlumatlı olduğunu bildirib, dövlətimizin başçısının rəhbərliyi ilə həyata keçirilən məhkəmə-hüquq islahatlarına və tətbiq olunan innovasiyalara, xüsusilə "Elektron məhkəmə" və "Elektron notariat" informasiya sistemlərinin fəaliyyətinə, vətəndaşlara səyyar və məsafədən notariat xidmətlərinin göstərilməsinə, yenicə işlənilmiş mobil notariat proqramının tətbiqinə böyük maraq göstərərək təqdir edib, bu sahədə ölkəmizin təcrübəsi ilə tanış olmaq barədə niyyətini bildirib.

Sonra nazirliklər arasında ədliyyə və məhkəmə sistemlərinin müasirləşdirilməsi, qanunvericiliyin təkmilləşdirilməsi, elektron ədliyyə, elektron məhkəmə, ədliyyə işçilərinin və hakimlərin tədrisi və digər sahələrdə birgə tədbirlərin keçirilməsini nəzərdə tutan əməkdaşlıq haqqında Anlaşma Memorandumu imzalanıb.

Nazirlər bu mühüm sənədin ikitərəfli münasibətlərin inkişafında müstəsna rolunu qeyd edərək müxtəlif istiqamətlər üzrə qarşılıqlı fəaliyyətin genişlənəcəyinə əminliklərini bildirib, bu sahədə konkret tədbirlər barədə razılığa gəliblər.

Həmçinin nümayəndə heyəti Səudiyyə Ərəbistanı Ali Məhkəməsinin sədri və baş prokuroru ilə görüşüb. Söhbət zamanı ədalət mühakiməsinin səmərəliliyi, məhkəmələrə müraciət imkanlarının asanlaşdırılması, elektron məhkəmənin tətbiqi, hakimlərin seçimi və tədrisi müzakirə edilib, ikitərəfli əməkdaşlığın genişləndirilməsinə böyük maraq göstərilib, təcrübə mübadiləsi aparılıb.

Eyni zamanda, Azərbaycan nümayəndə heyəti Səudiyyə Ərəbistanının ən böyük məhkəmələrindən olan, 70-ə yaxın hakimin çalışdığı Ər-Riyad Cəza Məhkəməsinə baş çəkib, onun fəaliyyəti ilə tanış olub. Nümayəndə heyəti üçün məhkəmədə elektron texnologiyaların tətbiqinə dair təqdimat keçirilib.

Bundan başqa, Səudiyyə Ərəbistanının bölgələrinə səfər edilərək yerli ədliyyə və məhkəmə orqanlarının fəaliyyəti ilə tanışlıq həyata keçirilib.

Keçirilən bütün görüşlərdə Səudiyyə Ərəbistanı rəhbərliyinin tapşırığına əsasən, respublikamızla əməkdaşlığın müxtəlif sahələrdə genişləndirilməsi və müsbət təcrübələrin bölüşülməsi ilə bağlı niyyət ifadə olunub. Habelə son illər Azərbaycana səfər edən ərəb turistlərinin sayının artmasının ölkəmizə göstərilən böyük marağın təzahürü olduğu vurğulanıb. Nümayəndə heyətimiz tərəfindən müasir ədliyyə fəaliyyətinə, məhkəmə-hüquq islahatlarına və tətbiq olunan yeniliklərə, habelə Azərbaycanda Səudiyyə Ərəbistanının tarixindən və mədəniyyətindən bəhs edən elmi tədqiqatlara dair xüsusi broşürlər təqdim edilib.

Həmçinin həmsöhbətlərin diqqəti Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin acı nəticələrinə, torpaqlarımızın 20 faizinin işğalı və bir milyondan çox soydaşımızın qaçqın və məcburi köçkün vəziyyətinə düşməsi faktına cəlb edilib. Səudiyyə Ərəbistanı Krallığının münaqişənin həllində Azərbaycanın haqlı mövqeyini daim dəstəkləməsi təqdir olunub.

Tədbirlərdə Azərbaycan Respublikasının Səudiyyə Ərəbistanı Krallığındakı səfiri Şahin Abdullayev iştirak edib.

# *Tural GƏNCƏLİYEV:* "Münaqişənin həlli prosesində Dağlıq Qarabağın erməni icması ilə konstruktiv dialoq aparmağa hazırıq"

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin regionumuz üçün törətdiyi ağır nəticələr hamıya məlumdur. İlk olaraq bunu Ermənistanın həyata keçirdiyi təcavüz və işğal siyasəti nəticəsində doğma torpaqlarından didərgin salınmış azərbaycanlı məcburi köçkünlər, o cümlədən Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icmasının üzvləri daha yaxından hiss edirlər. İnanırıq ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi ilə regionda nəinki hərbi və siyasi təhlükəsizlik və sabitlik bərpa olunar, habelə regionun iqtisadi, humanitar və digər sahələrdə inkişafı istiqamətində daha böyük uğurlar əldə edilə bilər.

AZƏRTAC xəbər verir ki, bu sözləri "Azərbaycan Respublikası Dağlıq Qarabağ Bölgəsinin Azərbaycanlı İcması" İctimai Birliyinin sədri Tural Gəncəliyev mətbuata açıqlamasında deyib.

O bildirib ki, bu müstəvidə 2019-cu ilin yanvarında Brüsseldə aparılmış "Dağlıq Qarabağ münaqişəsinin həllinin Ermənistana və Azərbaycana iqtisadi təsiri" adlı araşdırmanın təqdimatı diqqəti cəlb edib. Sözügedən araşdırma mənzil-qərargahı Berlində yerləşən "BE Berlin Economics GmbH" konsaltinq şirkəti tərəfindən Avropa İttifaqının maliyyə dəstəyi ilə hazırlanıb. Araşdırmada vurğulanır ki, münaqişənin tam tənzimlənməsi sərhədlərin açılması, ticarətin yenidən bərpası, əməkdaşlıq potensialı, qaçqınlar və məcburi köçkünlərlə bağlı bütün məsələlərin həlli vasitəsilə Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşmasına gətirib çıxaracaq. Xülasədə qeyd edilir ki, "Dağlıq Qarabağ münaqişəsinin həlli böyük iqtisadi faydalar gətirəcək və bu, hər iki ölkənin iqtisadi marağındadır. Münaqişənin həllindən on il sonra hər iki ölkə daha yüksək inkişaf yolunda olacaq, eləcə də yaşayış standartları nəzərəçarpacaq dərəcədə təkmilləşəcək. Bu xüsusda, sülhün iqtisadi faydaları Dağlıq Qarabağ münaqişəsinin daimi həllinin tapılmasının lehinə güclü dəlildir".

T.Gəncəliyev vurğulayıb ki, Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icması olaraq, biz də bu məntiqə şərik çıxdığımızı və məhz belə yanaşmanı dəstəklədiyimizi bildirmək istərdik. Münaqişənin həlli nəticəsində Ermənistan əhalisi regionda yaranacaq əməkdaşlıq imkanlarından faydalanmaq imkanları əldə edəcək. Azərbaycan tərəfi bunu dəfələrlə bəyan edib.

"Regionda sülhün bərqərar olmasının gələcək üçün önəmli olduğuna diqqəti çəkərək biz münaqişənin həlli prosesində maraqlı tərəf olaraq Dağlıq Qarabağın erməni icması ilə konstruktiv dialoq aparmağa və təmas qurmağa hazır olduğumuzu, müxtəlif müstəvilərdə, o cümlədən iqtisadi və humanitar əlaqələrin bərpa olunmasına töhfəmizi verməyə hazırıq.

Şübhəsiz ki, bunun üçün münaqişənin ədalətli həlli prosesi çərçivəsində Ermənistan qoşunları Azərbaycanın işğal olunmuş ərazilərindən çıxarılmalı, məcburi köçkünlərin, o cümlədən Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı əhalisinin doğma torpaqlarına - Dağlıq Qarabağa təhlükəsiz və ləyaqətli şəkildə qayıtması, mülkiyyət hüquqlarından istifadə olunması təmin edilməlidir. Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icmasının üzvləri Dağlıq Qarabağın azərbaycanlı və erməni icmalarının ölkəmizin beynəlxalq səviyyədə tanınmış sərhədləri, suverenliyi və ərazi bütövlüyü çərçivəsində yenidən sülh şəraitində birgə yaşamağa qadir olduqlarına inanırlar", - deyə İctimai Birliyin sədri diqqətə çatdırıb.

# Məcburi köçkünlərin Prezidentin hədiyyə etdiyi evlərə köçürülməsi başlanılıb

Sumqayıt şəhərində uzun illərdən bəri qəzalı və həyat üçün təhlükəli bina və tikililərdə məskunlaşan köçkünlərin Abşeron rayonu ərazisində 1000 məcburi köçkün ailəsi üçün salınmış yeni yaşayış kompleksindəki mənzillərə köçürülməsinə başlanılıb.

Bu məqsədlə fevralın 4-də Sumqayıtdakı N.Nərimanov adına Mədəniyyət Evində püşkatma keçirilib.

Püşkatmadan sonra məcburi köçkün ailələrinin dövlət komitəsinin ayırdığı nəqliyyat vasitələri ilə yaşayış kompleksinə köçürülməsinə başlanılıb. Yeni mənzillər tam təmirlidir, mətbəx mebeli, qaz sobası ilə təchiz olunub. Bundan başqa, mənzillərdə mərkəzləşdirilmiş internet və televiziya şəbəkəsi də var.

Yeni mənzillərə köçən məcburi köçkün ailələri onlara göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə, birinci xanım Mehriban Əliyevaya təşəkkürlərini bildiriblər.

Abşeron rayonunun ərazisindəki yeni kompleksdə mənzillərin 167-si birotaqlı, 536-sı ikiotaqlı, 302-si isə üçotaqlı və dördotaqlıdır. Ərazidə sakinlərin asudə vaxtlarını səmərəli keçirmələri üçün iki istirahət guşəsi yaradılıb, uşaq meydançası quraşdırılıb. Qəsəbə bütün zəruri infrastruktur obyektləri ilə təmin edilib.

# Təhqir və böhtana görə cəzalar sərtləşdirilməlidir

Dünən Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin iclası keçirildi. İclasın gündəliyinə müzakirə olunması üçün 5 məsələ daxil edilmişdi.



Bunlar “2010-cu il 18 noyabr tarixli “Xəzər dənizində təhlükəsizlik sahəsində əməkdaşlıq haqqında” Sazişə Xəzər dənizində mütəşəkkil cinayətkarlıqla mübarizədə əməkdaşlıq üzrə” Protokolun təsdiq edilməsi haqqında”, “2010-cu il 18 noyabr tarixli “Xəzər dənizində təhlükəsizlik sahəsində əməkdaşlıq haqqında” Sazişə Xəzər dənizində terrorçuluqla mübarizədə əməkdaşlıq üzrə” Protokolun təsdiq edilməsi haqqında”, “2010-cu il 18 noyabr tarixli “Xəzər dənizində təhlükəsizlik sahəsində əməkdaşlıq haqqında” Sazişə Sərhəd orqanları arasında əməkdaşlıq və qarşılıqlı fəaliyyət üzrə” Protokolun təsdiq edilməsi haqqında” və “Xəzər dənizində insidentlərin qarşısının alınması haqqında” Sazişin təsdiq edilməsi barədə” qanun layihələri idi.

Milli Məclis Sədrinin birinci müavini, komitənin sədri Ziyafət Əsgərov gündəlikdəki məsələlər barədə məlumat verərək qeyd etdi ki, ötən ilin avqustunda Xəzəryanı ölkələr arasında Xəzər dənizinin statusu ilə bağlı böyük tarixi əhəmiyyətə malik olan Konvensiya imzalanıb. Bununla əlaqədar uzun müddət danışıqlar gedib və mühüm işlər görülüb. Konvensiya Azərbaycanın milli maraqlarına cavab verir və bu sənəd Xəzərin statusundan irəli gələn məsələləri özündə əks etdirir: “Bu Konvensiyanın imzalanması Azərbaycanın tarixi qələbəsi oldu. Bu, Prezident İlham Əliyevin xarici siyasətinin qələbəsidir”.

Sonra komitə sədri gündəlikdəki “Hərbi vəzifə və hərbi xidmət haqqında”, “Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında” qanunlarda, Cəzaların İcrası və İnzibati Xətalar məcəllələrində dəyişiklik edilməsi barədə qanun layihəsini birinci oxunuşda təqdim edərək vurğuladı ki, təklif olunan dəyişikliklər redaktə xarakterlidir. Müzakirələr zamanı deputatlar qanun layihələrini və dəyişiklikləri müsbət qiymətləndirdilər.

İclasda son günlər antiazərbaycançı şəbəkənin buyruq quluna çevrilərək Azərbaycan dövlətinə və Prezident İlham Əliyevə qarşı sosial şəbəkələrdə apardığı çirkin kampaniyadan da söz açıldı.

Ziyafət Əsgərov vurğuladı ki, bir qrup şəxs sosial şəbəkələrdə Azərbaycan Prezidentinə qarşı əxlaqsızlıq nümayiş etdirir: “Azərbaycan gücləndikcə, Prezident İlham Əliyevin müstəqil siyasəti dəstək qazandıqca bu hücumlar artır. Onlar bu işdə bizim marginallardan istifadə edirlər. Bu əxlaqsızlığa son qoyulmalıdır”. O vurğuladı ki, Azərbaycana qarşı istənilən çirkin kampaniya iflasa məhkumdur. Çünki ulu öndər Heydər Əliyev bu dövləti yaradanda onun fundamentini çox möhkəm qoyub: “Ona görə də həmin çirkin qüvvələr bilsinlər ki, bu dövləti sarsıda bilməzlər, Azərbaycan öz inkişaf yolu ilə daim irəli gedəcək”.

İclasda çıxış edən komitə üzvləri də qanunvericilikdə dəyişikliyin, cəzaların sərtləşdirilməsinin vacibliyini söylədilər.

Komitə sədrinin müavini Aydın Mirzəzadə hesab etdi ki, bəzi dairələr təxribatlar törədərək Azərbaycanı Yaxın Şərq ölkələrinin durumuna salmaq istəyirlər. Prezident İlham Əliyevin müstəqil siyasətini, xalqına qayğısını həzm edə bilməyən qüvvələr bundan ötrü daxildəki aqressiv müxalifətdən istifadə edirlər: “Azərbaycan Prezidentinin xalqa xidməti göz önündədir. Dövlət başçısının aztəminatlı ailələr, məcburi köçkünlər, şəhid ailələri, gənclərə göstərdiyi diqqəti hər kəs görür. Bu, cənab İlham Əliyevin yüksək mənəvi dəyərlərə sahib olmasından xəbər verir. Bütün bunları görə-görə dövlət başçısını necə təhqir edə bilərlər? Demək ki, bütün bunlar məkirli planların tərkib hissəsidir”.

Ziyafət Əsgərov isə həmkarının fikirlərinə əlavə olaraq vurğuladı ki, böhtan və təhqir cəzasız qalmamalıdır.

“Milli Şura” adlı qurumun xaricdən maliyyələşdiyini deyən komitənin üzvü, deputat Fərəc Quliyev isə bu təşkilatın mitinq keçirməsinə icazə verilməməsinin tərəfdarıdır. Deputat hesab edir ki, təhqirə yol verənlərə qarşı çox sərt tədbirlər görülməli, bununla bağlı qanunvericilikdə ciddi dəyişikliklər edilməlidir.

Deputat Aqil Abbas isə bildirdi ki, Azərbaycanın xarici ölkələrdəki səfirlikləri bu işlərlə ciddi məşğul olmalıdırlar. Səfirlər fəaliyyət göstərdikləri ölkələrdə Azərbaycan dövlətinin, Prezidentin əleyhinə təhqirlər yazan şəxslərlə bağlı məlumat hazırlayıb həmin dövlətlərin hüquq-mühafizə orqanlarına təqdim etməlidirlər.

Deputat Elman Məmmədova görə, dağıdıcı müxalifətin keçirdiyi icazəli mitinqlərdə dövlət əleyhinə çağırışlar səsləndirilir, ancaq heç bir tədbir görülmür. Deputat deyir ki, sosial şəbəkələrdəki təhqirlərlə, böhtanlarla bağlı ciddi tədbir görülməlidir. Eyni zamanda, qanunvericiliyə sərt sanksiyaların tətbiqini nəzərdə tutan maddələr əlavə olunmalıdır.

Deputat Bəxtiyar Sadıqov da Ziyafət Əsgərovun vətəndaş təəssübkeşliyindən irəli gələn bəyanatını dəstəkləyərək bildirdi ki, Azərbaycan Prezidentini təhqir etmək, əslində, xalqı, dövləti təhqir etmək deməkdir. Ona görə də hər kəsin vətəndaşlıq borcudur ki, dövlətin, onun başçısının şərəfini qorusun: “Bu oyunbazlar yaxşı bilirlər ki, bu yolla nəyəsə nail ola bilməyəcəklər. Ona görə də təhqirə, böhtana keçiblər. O insan ki, başqasının ailə üzvünü təhqir edir, deməк, heç özünkünün də qədrini bilmir. Ona görə də biz dövlət başçısına qarşı aparılan çirkin kampaniyaya qarşı ciddi mübarizə aparmalıyıq”.

Deputatlardan Zahid Oruc, Adil Əliyev çıxış edərək antiazərbaycançı şəbəkənin xaricdəki “sapı özümüzdən olan baltaları”na göstərdikləri dəstək və bunun qarşısının alınması yollarından söz açdılar. Qeyd edildi ki, dövlət başçısına qarşı təhqirlər, böhtanlar səsləndirən şəxslərə qarşı cəza tətbiq olunmalıdır. Hüquqi prosedur qaydaları çərçivəsində sosial şəbəkələrdə və digər internet saytlarında onları durdurmaq lazımdır.

Sonda komitə sədri Ziyafət Əsgərov bir daha vurğuladı ki, Prezident İlham Əliyev Azərbaycanın sürətli inkişafının, təhlükəsizliyinin qarantıdır. Ona görə də Prezidentin müdafiəsi hər bir azərbaycanlının vətəndaşlıq borcudur: “ Mən hesab edirəm ki, dövlət başçısının ailəsinə ünvanlanan təhqir, hər bir Azərbaycan vətəndaşının ailəsinə edilən təhqirdir. Ona görə də bizlər bir yumruq kimi birləşməli, bu insanlara, çirkin kampaniyalara layiqli cavab verməliyik”.

Ziyafət Əsgərov həmkarlarının fikirlərinə dəstək verərək sosial şəbəkə vasitəsilə ölkəmizə qarşı aparılan təhqir, böhtan kampaniyasına son qoyulması üçün hüquqi bazanın təkmilləşdirilməsinin vacibliyini söylədi.

***Rəşad BAXŞƏLİYEV.***
***“Azərbaycan”***

# Milli Məclis Sədrinin müavini Avrasiya İqtisadi Zirvə toplantısında iştirak edəcək

Milli Məclisin Sədr müavini Valeh Ələsgərov 22-ci Avrasiya İqtisadi Zirvə toplantısında iştirak etmək üçün fevralın 5-də Türkiyənin İstanbul şəhərinə səfərə gedəcək.

Parlamentin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Mərmərə qrupu Strateji və Sosial Araşdırmalar Mərkəzi tərəfindən keçiriləcək tədbirdə texnologiyaların inkişafı və insanların gələcəyi, süni zəkanın iqtisadiyyatda və enerji sahəsində rolu, qloballaşmanın yeni səviyyələri, su və enerji ilə bağlı mövzular müzakirə olunacaq.

Valeh Ələsgərov müzakirəyə çıxarılan məsələlər barədə fikirlərini açıqlayacaq, təkliflərini verəcək.

Səfər fevralın 7-də başa çatacaq.

# “Mənim parlamentim” layihəsi çərçivəsində növbəti görüş keçirilib

Avropa Gənclər Parlamentinin Azərbaycan nümayəndəliyinin reallaşdırdığı “Mənim parlamentim” layihəsi çərçivəsində növbəti görüş Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri, Avropa Şurası Parlament Assambleyasında (AŞ PA) Azərbaycan nümayəndə heyətinin rəhbəri Səməd Seyidov ilə olub.

AZƏRTAC xəbər verir ki, görüşdə Səməd Seyidov Milli Məclisin fəaliyyəti, Azərbaycan nümayəndə heyətinin AŞ PA-dakı fəaliyyəti, qlobal siyasət arenasında mövcud trendlər barədə məlumat verib. O deyib ki, Prezident İlham Əliyevin yürütdüyü uğurlu siyasət nəticəsində Avropa ölkələri və Avropa strukturları, o cümlədən dünya birliyi Azərbaycanın güclü təsir imkanlarına malik dövlət olduğunu və ölkəmizin sözü və mövqeyi ilə hesablaşmaq lazım gəldiyini dərk edir.

Görüşün təşkil edildiyi Siyasi Psixologiya Mərkəzinin fəaliyyətinə toxunan Milli Məclisin komitə sədri bildirib ki, mərkəz ölkəmizdə siyasət və psixologiya arasında əlaqəni araşdıran ilk təşkilatdır. Bu, vətəndaşların, o cümlədən gənclərin özünürealizə tələbatlarının hərtərəfli təmin olunması üçün imkanlar yaradır, onların bilik və bacarıqlarından istifadə etməklə şəxsiyyətin hərtərəfli inkişafına kömək göstərir.

Qeyd edək ki, “Mənim parlamentim” layihəsinin məqsədi gəncləri Milli Məclisin və deputatların fəaliyyəti ilə yaxından tanış etmək, onların maariflənrilməsinə töhfə verməkdir. Daimi xarakter daşıyan layihə çərçivəsində gənclərin Milli Məclisin üzvləri və komitə sədrləri ilə görüşləri təşkil olunur.

“Avropa Gənclər Parlamenti” qitənin 41 ölkəsində fəaliyyət göstərir. Təşkilatın Azərbaycan nümayəndəliyi 2010-cu ildə təsis edilib. Sıralarında vətənpərvər, yüksək intellektual səviyyəyə malik fəal gəncləri birləşdirən təşkilat onların Azərbaycana və cəmiyyətimizə fayda vermələri üçün imkanlar yaradır.

# Yaddaşın təzələnməsi

## Yaddaşlarını itirənlər elə bilirlər ki, xalq da yaddaşsızdır

***Əvvəli 1-ci səh.***

*Milli İstiqlal Partiyası isə “ana müxalifət”ə çevrildi.*

*Təcrübəsiz, səriştəsiz, görməmiş adamların eyforiya dövrü başladı.*

**Tamahları onları idarə etsə də, onlar dövləti idarə edə bilmirdilər!**

- *Bir yanda xaos və anarxiya...*
- *Bir yanda özbaşınalıq və qanunsuzluq...*
- *Bir yanda artan cinayətkarlıq...*
- *Bir yanda işsizlik və yoxsulluq...*
- *Bir yanda ölkə ərazisinin kəndbəkənd işğalı...*
- *Bir yanda da ümidsizlik və sabaha inamın itməsi.*

*Nə dalbadal elan edilən fövqəladə vəziyyətlər kara gəlirdi...*

*...Nə də küçələrdən tutularaq əlinə avtomat verilən və birbaşa döyüş bölgəsinə göndərilən “hərbi birləşmələr” torpağı qorumağa qabil idi.*

**Ölkə parçalanma, yenidən xanlıqlara bölünmə həddinə gəlmişdi.**

**Vəzifə sərməstliyinin acı etiraf mərhələsi çatmışdı.**

*Ulu öndər Heydər Əliyevə yalvar-yaxar etməyə başladılar!*

*Dalınca neçə dəfə Naxçıvana təyyarə göndərdilər!*

Amma qısa müddətdə gördükləri vəzifənin dadı damaqlarında qalmışdı!

Ulu öndər xalqın və dövlətin düşdüyü vəziyyətə biganə qala bilməyərək geriyə dönəndə isə vəzifələrini “donduraraq” gözləmə mövqeyinə keçdilər.

Gözlədilər ki, ulu öndər Heydər Əliyev:

- *müharibədə atəşkəsə nail olsun;*
- *qeyri-qanuni silahlı birləşmələri ləğv etsin;*
- *ölkədə möhkəm və dönməz sabitlik yaratsın;*
- *müstəqilliyi əbədiliyə və dönməzliyə çevirsin;*
- *Azərbaycanı böhran və fəlakətdən xilas etsin;*
- *neft müqavilələri bağlayaraq insanları ehtiyac və yoxsulluqdan qurtarsın;*
- *büdcəyə bol-bol vəsait gəlsin.*

Bütün bunlardan sonra yenidən geriyə qayıdaraq talançılığa başlasınlar!

**Amma iqtidardan getməmişdən qabaq - 25 may 1993-cü ildə Prezident Aparatında geniş müşavirə keçirərək vəzifədə olduqları qısa dövr ərzində gördükləri işlərə öz qiymətlərini verdilər!**

**Əslində bu, həm də AXC-Müsavat cütlüyünün səriştəsiz idarə etməsindən boğaza yığılan xalqın onlara verdiyi qiymət idi.**

**Amma özləri öz dillərindən səsləndirirdilər.**

### ÖZÜNÜİFŞA VƏ MÜSTƏQİLLİK AMALLARINA XƏYANƏTİN ACI ETİRAFLARI

Bu gün dondurduqları vəzifənin buzunun açıldığını güman edərək yenidən geriyə qayıtmaq eşqinə düşənlərin, onları tanımayaraq, əvvəlki əməllərindən xəbərsiz olanları aldadanların, özlərini “vətənpərvər”, “demokrat”, “xalqın qeydinə qalan” və s. kimi göstərmək istəyənlərin 1993-cü ilin may müşavirəsində söylədiklərindən bəzi sitatları xəbərsizlərin, meydan qəhrəmanları və tribuna hərislərini tanımayaraq onlara inanmaq istəyənlərin diqqətinə çatdırırıq!

*Əvvəlcə özünü sonuncu mitinqin “qəhrəmanı” kimi aparmağa çalışan ƏLİ KƏRİMLİDƏN başlayaq. O Əli Kərimlidən ki, heç yerdə işləməsə də, qrant hesabına nəinki yağ-bal içində yaşayır, hətta özünə cangüdənlər, qulluqçular da saxlaya bilir.*

**Xatırlayaq ki, Əli Kərimli AXC-Müsavat iqtidarı dövründə baş verənlər üçün yüksək məsuliyyət daşıyan dövlət katibi postunu tuturdu.**

**Beləliklə, onun çıxışından müxtəlif parçaları sitat gətiririk.**

***Dövlət katibi Əli KƏRİMLİ:***

*“Milli Orduda nəzarətsizliklər nəticəsində heç bir intizamın olmaması, silahın, şəxsi heyətin, texnikanın uçotunun olmaması ona şərait yaratmışdı ki, Azərbaycan Respublikasının Milli Ordusunda külli miqdarda dövlət əmlakının mənimsənilməsinə şərait yaradılmış, külli miqdarda cinayətlər törədilmiş və bir sıra hərbi cinayətlər artıq cəzasızlıqdan adi hala çevrilmiş, ümumiyyətlə, cinayət kateqoriyası sırasından çıxmışdır. Məsələn, fərarilik o qədər geniş yayılmışdı ki, bu tipli cinayətlərə görə cəza verilməsi artıq mümkün olmur”.*

❖ ❖ ❖

*“Xalqın böyük narazılığına səbəb olan bir qüsurumuz da iqtisadi sahədə cinayətkarlığın baş alıb getməsidir. İqtisadi sahədə cinayətkarlıq elə bir vüsət alıb ki, dövlət əmlakının açıq-aşkar mənimsənilməsi, qeyri-qanuni yollarla xaricə satılması, həmin vəsaitin xaricdə saxlanılması və bir sözlə, dövlət əmlakının talan edilməsi adicə hala çevrilib”.*

❖ ❖ ❖

*“İqtisadiyyatın bütün sahələrində cinayətkarlıq iri miqyas alıb və hətta ayrı-ayrı cinayət faktları göstərir ki, hüquq mühafizə orqanlarının da müəyyən vəzifəli şəxsləri daxil olmaqla, artıq dövlət orqanlarının daxilində müəyyən cinayətkar təbəqələr formalaşmaqdadır”.*

❖ ❖ ❖

*“Bu gün Azərbaycanın maddi sərvətləri qaçaqmalçılıq yolu ilə talan olunur. Respublikanın on minlərlə iribuynuzlu mal-qarası, minlərlə texnikası və digər maddi sərvətləri sərhəddən qaçaqmalçılıq yolu ilə keçirilir. Bu, respublikanın iqtisadiyyatına sarsıdıcı zərbə vurur”.*

❖ ❖ ❖

*“Respublikada bütövlükdə nəinki qanunçuluq, hətta icra intizamı xeyli dərəcədə aşağıdır. Prezident fərman və sərəncamlarının icrası qənaətbəxş səviyyədə deyil. Bəzən elə ab-hava yaradırıq ki, qanunsuzluq, özbaşınalıq, hakimiyyətsizlik demokratiya ilə eyniləşdirilir. Çox təəssüf ki, hətta fərmanlar icra olunduğu təqdirdə belə istənilən nəticəni vermir. Qarşıya qoyulan nəticəyə nail olunmur”.*

❖ ❖ ❖

Ən nəhayət, özünə və ətrafına verdiyi ən obyektiv qiymət:

*“Hələ biz özümüz Prezident Aparatında bu işi lazımi səviyyədə qura bilməmişik. Fövqəladə vəziyyəti elan etməklə ölkəmizdə sabitliyin bərqərar olunmasına, ordu quruculuğunun başa çatdırılmasına, qanunsuz silahlı dəstələrin, şəxslərin tərksilah olunmasına, bir sözlə, qanunçuluğun səviyyəsinin yüksəlməsinə şərait yaratmalı idik. Ancaq... Fövqəladə vəziyyətdə bizim görə bildiklərimiz görməli olduqlarımızdan xeyli azdır. Və biz, əslində, heç də bütün imkanlarımızdan istifadə edə bilmədik”.*

**İxtiyar ŞİRİNOV AXC-Müsavat iqtidarı dövründə Baş prokuror vəzifəsini daşıyırdı. “Gəncə qiyamı” zamanı prezident Əbülfəz Elçibəyin həbsi barədə order verməsi ilə yadda qalıb.**

***Baş prokuror İxtiyar ŞİRİNOV:***

*“Respublikada mafioz qüvvələr get-gedə güclənməkdə, baş qaldırmaqdadır. Belə qüvvələr müxtəlif fırıldaqla dövlət əmlakını çapıb talayır, iqtisadiyyata böyük zərbə vururlar. Bakı, Gəncə, Sumqayıt və digər şəhərlərdə böyük mafiya fəaliyyət göstərir”.*

❖ ❖ ❖

*“1991-ci illə müqayisədə indi qeydə alınan cinayətlərin sayı böyük sürətlə - 43,8 faiz artaraq 22450 hadisəyə çatmış, ağır cinayətlərin sayı isə iki dəfədən çox artmış və 6009 belə cinayət hadisəsi qeydə alınmışdır”.*

❖ ❖ ❖

*“Cinayət işlərinin qeydiyyatdan gizlədilməsi halları müəyyən edilmişdir. Qanunsuzluqların nəticəsidir ki, banditizmin 98, qəsdən adamöldürmənin 55,2, zorlamanın 52, dövlət əmlakının mənimsənilməsinin 61,8, soyğunçuluğun 79,7, quldurluğun 81,4 faizi açılmamış qalmışdır. Bu, prokuror nəzarətinin zəif olması deməkdir”.*

❖ ❖ ❖

İxtiyar Şirinovun öz komandalarının yekun işinə verdiyi qiymət isə belə oldu:

*“Açıq danışmaq lazımdır. Respublikamızda rüşvətxorluğun belə tüğyan etməsi, bu cür baş alıb getməsi hüquq mühafizə orqanlarının özünün həmin hallara şərait yaratması nəticəsində baş vermişdi. Dövlət aparatında, hüquq mühafizə orqanları arasında rüşvətxorlar həddindən artıq çoxdur. Bunu açıq qeyd etmək lazımdır və biz hələ də bələlərinə qarşı mübarizə aparmaqda zəiflik göstəririk. Nə qədər ki dövlət aparatında sağlam əhvali-ruhiyyə yaratmamışıq, nə qədər ki dövlət aparatında, o cümlədən hüquq mühafizə orqanlarında rüşvətxorları ifşa edib kənarlaşdırmamışıq, belə şərait davam edəcəkdir. Dövlət aparatı özü iflic vəziyyətindədir, daha doğrusu, özü rüşvətxorluqla məşğul olur. Ona görə də rüşvətxorluqla məşğul olan dövlət aparatı rüşvətxorluqla mübarizə apara bilməz və biz bu məsələnin həllini dövlətdən başlamalıyıq”.*

***Daxili işlər naziri Abdulla ABDULLAYEV:***

*“Cinayətkar əlaqələrin zorakılığı və qəddarlığı güclənir, silahlı formalarda cinayətkar terrorizm yayılır, iqtisadi sahələrin kriminallaşması davam edir, mütəşəkkil cinayətkarlığın və korrupsiyanın kriminal-siyasi təhlükəsi böyüyür... Bölgələrdə mənəm-mənəmlik, hegemonluq iddiası hələ də davam edir. Məsələləri sivilizasiyalı həll və qanunun aliliyini təmin etmək əvəzinə vəzifəli şəxslər şəhərdə və ya rayonda birinci olmaq uğrunda didişirlər. Belə hallar iqtidarı, hökuməti nüfuzdan, hörmətdən salır, xalqın mövcud hakimiyyətə olan inamını sarsıdır. Məncə, artıq bölüşdürülməli heç nə yoxdur”.*

❖ ❖ ❖

*“Çox təəssüf ki, biz hələ də idarəçiliyə, boşboğazlığa son qoymamışıq. Hər kəs öz yerini bilməlidir”.*

❖ ❖ ❖

*“Etiraf etməliyik ki, peşəkarlığın səviyyəsi dəhşətli dərəcədə enmişdir. Gedən təcrübəli əməliyyatçılar və müstəntiqlərin layiqli əvəzlərini hazırlaya bilmirik”.*

***Ədliyyə naziri İlyas İSMAYILOV:***

*“Cinayətkarlar öz içimizdədir. Ona görə də onun dağıdıcı qüvvəsi çox böyükdür. Ümumiyyətlə isə, ölkədəki cinayətkarlıqla bağlı mübarizədə biz heç nə edə bilməmişik. Cinayətkarlıq bizim fəaliyyətimizi üstələyir, bu, çox acı gerçəklikdir”.*

❖ ❖ ❖

*“Məhkəməyə verilən 14407 cinayətkardan cəmi 7878 nəfəri cəza alıb. Bəli, biz işləyə bilmirik. Hüquq mühafizə orqanlarında əlaqələndirilmə yox dərəcəsindədir”.*

❖ ❖ ❖

*“Hakimiyyətimiz dövründə rüşvətxorluq kommunistlərin dövründəkindən dəfələrlə çoxalıb. Bu, faktdır. Vəzifəli şəxslər içərisində təmizləmə aparılmalıdır”.*

❖ ❖ ❖

*“İqtisadi sahədə böyük dağıntılar gedir. Guya ki, apardığımız “mübarizə” ilə əslində cinayətkarları cinayətlərə daha da həvəsləndiririk. Məhkəmələr, doğrudan da, işləmir. Bu sistemdə yoxlama aparmışıq, adamı dəhşət bürüyür. Adi fakt: məhkəmə prosesi olmadan hökm çıxardırlar. Bu, ən böyük biabırçılıqdır”.*

❖ ❖ ❖

İlyas İsmayılovun sonuncu qiymətləndirməsi isə belə oldu:

*“ZAQS-lar 33 yaşlı azərbaycanlı qadınlar ilə 51 yaşlı rus kişisinin, 55 yaşlı azərbaycanlı kişisi ilə 80 yaşlı rus qadınının kəbinini kəsir. Bunu edənlər natəmiz məqsədlər güdürlər. Ən böyük zərbəni isə mənəvi sərvətlərimiz alır. Görün bu məmurlar nə edirlər? 80 yaşlı ananı, 50 yaşlı bacını gətirib bir rusa ərə verirlər! Nədir, bunun müqabilində pul qazanacaqlar”.*

**“Tarixi müşavirə” zamanı prezident Əbülfəz Elçibəy dəfələrlə çıxışlara müdaxilə etdi, baş verənləri qiymətləndirdi, öz mövqeyini bildirdi. Amma onun dedikləri hərdən qeyri-ciddi xarakter daşıyırdı. Çünki komanda üzvləri sevimli rəhbərlərini elə bir vəziyyətə gətirmişdilər ki, dediklərinin məntiqinə varmırdı.**

**Yaxşı olar ki, bir neçə sitatı nəzərdən keçirək.**

***Prezident Əbülfəz ELÇİBƏY:***

*“Respublikada talançılıq baş alıb gedir. Nizami demişkən, əgər oğurlanan maldan gözətçinin xəbəri yoxdursa, demək, gözətçinin orada əli var. Burada milis orqanıdır, prokuror orqanıdır və bir də məhkəmə orqanıdır. Burada oturan orqanların əli həmin cinayətdə var. Bunu nə ilə izah edərdiniz? Bax, hamımız buradayıq. Demirik hüquqi dövlət qururuq... Onda bu ölkəni niyə dağıdırsan? Başa düşmürəm... Xarici iqtisadi əlaqələr pozulur, benzin, neft, taxıl respublikadan dağıdılır. Azərbaycanın rayonlarında benzin tapılmır”.*

❖ ❖ ❖

*“Rüşvət alanda milyonlarla dollar alırsınız, alırsan, heç olmasa yüz minlərlə al, beş manat al, insafla al”.*

❖ ❖ ❖

*“Münaqişəni aradan qaldırmaq indi çətin deyil. Müqavilə imzalayacağıq, bir müddət onu gizli saxlayacağıq, bir 10 gündən, 20 gündən sonra onu açıq elan eləyərik. Bu, əslində, mənim təklifimdir. Ermənistana çatdırmışam ki, nədir axı bu böyük dövlətləri salmısan, arada bizi qırdırır və biz bir-birimizi qırırıq. İndi deyirəm ki, Zəngilandan çıxsınlar, otursunlar sərhədlərdə, kəndləri qaytarsınlar. Sonra Qazaxdan, Tovuzdan çıxacaqlar. Biz də sərhədləri qıraqlardan bağlaya-bağlaya gəlib çıxacağıq Qarabağa. Onunla da problemi həll edəcəyik”.*

❖ ❖ ❖

*“Məni yandıran odur ki, Azərbaycanda xaricilərin əli ilə oynayanlar var. Mən bilsəydim ki, Həsəndir, Hüseyndir, gedib deyərdim, sən Allah, bunu eləmə. Onlar elə günə düşüblər ki, geriyə qayıtmağa yol yoxdur. Çox böyük fəlakət gəlir millətin üstünə. Biz də otururuq, deyirik ki, hələ görən filankəsə nə olacaq. Biz, doğrudan da, dövlətimizi itirəcəyik. İtirməyəcəyik, bu dövlət yenə də bir vaxt yaşayacaq. Amma biz qanın içində gedəcəyik”.*

Sonda dövlətə başçılıq edən komanda üzvlərini hədələməyi də unutmadı:

*“İndi nə olacaq, nə olmayacaq, bilmirəm. Ancaq mənim ümidim var ki, müəyyən qədər dövrü keçirə bilərəm. Bir dəfə demişəm, indi də deyirəm ki, bir həsirəm, bir də Məmmədnəsir, bu həsirimi ataram çiynimə, hakimiyyətdən gedərəm evimə. Dərviş kimi bir şeyəm...”*

**Əbülfəz Elçibəy sonda dediyi kimi də etdi: komandası ona naxələf çıxdığından, dövləti xaos və anarxiya burulğanında, rüşvət və korrupsiya çirkabında boğduğundan həsirini çiyninə alaraq Kələkiyə getdi!**

*Amma dediklərinin içində həqiqətə çevrilənlər də oldu:*

- Gedəndə qan içində getdilər, vətəndaş müharibəsini alovlandırıb aradan çıxdılar!
- Bu dövlət yenə də yaşayır və yaşayacaq!

**Çünki dövləti yaşadanlar, qoruyub inkişaf etdirə bilənlər hakimiyyətə qayıtdı!**

**Xalq da onları daim dəstəkləyir və arxasında durur.**

**Əgər kimsə hesab edir ki, “vəzifənin donunu açıb” geriyə qayıtmaq zamanıdır, ciddi şəkildə yanılır!**

*Ötən əsrin 90-cı illərini görənlər və həmin dövrün faciəli günlərini yaşayanlar var!*

*Onlar heç nəyi unutmayıblar!*

*Hətta nəinki unutmayıblar, baş verənləri öz övladlarına və nəvələrinə də danışıblar!*

**Nə qədər bu üç nəsil yaşayır, xəyanətkarlar, naşılar, səriştəsizlər, müstəqilliyə qənim kəsilənlər, düşmən qüvvələrin əlində Azərbaycana qarşı alətə çevrilənlər geriyə qayıda bilməz!**

*90-cı illərdə baş verənlərdən əyani dərs alanları bir daha aldatmaq mümkün deyil!*

*Bu gün “5-ci kolon”a çevrilən keçmişin tör-töküntüləri 5-3 nəfəri müvəqqəti başdan çıxara bilərlər!*

*Bütöv xalqı isə daha aldatmaq mümkün deyil!..*

*Xüsusən də əgər xalq bələlərinin dabbaqda gönünə bələd olubsa!*

**Bəxtiyar SADIQOV**

> Əgər kimsə hesab edir ki, “vəzifənin donunu açıb” geriyə qayıtmaq zamanıdır, ciddi şəkildə yanılır!
> Ötən əsrin 90-cı illərini görənlər və həmin dövrün faciəli günlərini yaşayanlar var!
> Onlar heç nəyi unutmayıblar!
> Hətta nəinki unutmayıblar, baş verənləri öz övladlarına və nəvələrinə də danışıblar!
> Nə qədər bu üç nəsil yaşayır, xəyanətkarlar, naşılar, səriştəsizlər, müstəqilliyə qənim kəsilənlər, düşmən qüvvələrin əlində Azərbaycana qarşı alətə çevrilənlər geriyə qayıda bilməz!
> 90-cı illərdə baş verənlərdən əyani dərs alanları bir daha aldatmaq mümkün deyil!
> Bu gün “5-ci kolon”a çevrilən keçmişin tör-töküntüləri 5-3 nəfəri müvəqqəti başdan çıxara bilərlər!
> Bütöv xalqı isə daha aldatmaq mümkün deyil!..
> Xüsusən də əgər xalq bələlərinin dabbaqda gönünə bələd olubsa!

# Özümü bu qədər güclü hiss etməmişdim

## Aqşin ORUCLU: "Prezident İlham Əliyevin məni bağrına basıb görüşməyi bütün şəhid əmanətlərinə olan ehtiram və qayğının təzahürü idi"




Əvvəli 1-ci səh.

Ötən həftə Ali Baş Komandan qarşısında şəhid övladı kimi, daha doğrusu, sabahın müsəlləh əsgəri - qəhrəman atasının şərəfli yolunun davamçısı kimi çıxış etdi...

### Azadlıq və müstəqillik itkisiz əldə edilmir

Bir qəhrəman övladı, gəncliyimizin nümunəsi olaraq Prezident İlham Əliyevin qarşısında çıxış edən Aqşin vurğuladı ki, Aprel döyüşlərində atasının Vətənimiz uğrunda qəhrəmancasına şəhidlik zirvəsinə ucalması Orucovar ailəsinə böyük qürur hissi yaşadır. Bu döyüşlərdəki qələbə isə yalnız ordunun deyil, həm də Ali Baş Komandan İlham Əliyevin qələbəsi idi: "Aprel döyüşləri həm də dünyaya Azərbaycan Ordusunun gücünü, əzmini və qətiyyətini göstərdi. Azərbaycan Ordusu bu gücü, bu ilhamı məhz Ali Baş Komandanından alır. Hamıya məlumdur ki, torpaqların qorunması, azadlıq və müstəqillik itkisiz əldə edilmir. Buna baxmayaraq, Vətən, torpaq uğrunda şəhid olan igid və qəhrəmanlarımız Azərbaycan var olduqca yaddaşlarda yaşayacaq".

### Hər zaman Ali Baş Komandanın yanındayıq

Aqşin təkcə gənclərə göstərilən diqqət və qayğıdan deyil, həm də cənab İlham Əliyevin şəhid ailələri, Qarabağ müharibəsi qaziləri ilə görüşünü xatırlayaraq bunu dövlət başçısının bu kateqoriyaya aid olan insanlara göstərdiyi böyük ehtiramın təzahürü kimi qiymətləndirdi: "Şəhid ailələri ilə keçirdiyiniz görüş, orada yaşlı şəhid valideynlərinə göstərdiyiniz qayğı və nəvaziş xalqımız tərəfindən qürur hissi ilə qarşılandı. Bu, biz gənclər üçün gözəl nümunədi. Siz bu görüşdəki çıxışınızda qeyd etdiyiniz kimi, təkcə keçən il 5900 məcburi köçkün ailəsi, 6600 şəhid ailəsi dövlətimiz tərəfindən mənzillərlə təmin olunub, 6 mindən çox şəhid ailəsinə minik avtomobilləri verilib. Bu, Sizin şəhid ailələrinə göstərdiyiniz münasibətin təzahürüdür. Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar şəhid ailələrinin sosial-məişət şəraitinin yaxşılaşdırılması üçün verdiyiniz sərəncama uyğun olaraq, 2016-cı ildə biz də, digər şəhid ailələri kimi, 11 min manat vəsaiti almışıq".

Şəhid vərəsələrinə göstərdiyi diqqət və qayğı üçün Prezidentə bir daha minnətdarlığını bildirən gənc dövlət başçısının rəhbərliyi ilə Azərbaycan gəncliyinin sabaha daha inamla addımlayacağını söylədi və bu yolda gənclərin, şəhid övladlarının daim Ali Baş Komandanın yanıda olacağını vurğuladı: "Azərbaycanın əmin-amanlıq şəraitində inkişafı üçün apardığınız siyasətdə Sizə uğurlar arzulayırıq. Əmin ola bilərsiniz ki, bir qəhrəman övladı olaraq hər zaman Sizin yanınızdayıq. Sizin apardığınız daxili və xarici siyasəti dəstəkləyirik. Biz gənclər düşünürük ki, verdiyimiz hər itki əvəzinə minlərlə gənc onların keçdiyi şərəfli yolu davam etdirməyə hazırdır. Mən bu gün bir gənc, bir şəhid övladı kimi bir daha əmin oldum ki, həyata keçirdiyiniz siyasətin əsasında sosial ədalət prinsipi hər şeydən yüksəkdə dayanır. Siz və birinci xanım Mehriban Əliyeva sosial müdafiəyə ehtiyacı olanlara hər zaman xüsusi diqqət və qayğı ilə yanaşmısınız, hər zaman şəhid ailələrinin yanında olmusunuz. Azərbaycan vətəndaşları hər zaman Sizin şəfqət və mərhəmətinizi hiss edib. Sizin gəncliyə dəstəyiniz və sosial siyasətiniz bizdə özünəinam və əminlik yaradır".

### Sanki mən həm atama, həm də dövlətimə hesabat verirdim

Atasının arzusunu gerçəkliyə çevirərək Azərbaycan Diplomatik Akademiyasına daxil olan Aqşin bu gün həm də Qarabağ döyüşçülərinin və qazilərinin, şəhidlərin tanıdılması, işğal faktının dünyaya yayılması, təbliği işində böyük səy göstərir. O, Aprel döyüşlərində şəhid olanların ailə üzvləri ilə birgə yaradılan ictimai birliyin aktiv üzvlərindən biridir.

Prezidentlə keçirilən görüşdən sonra Aqşin Orucovla görüşüb təəssüratları ilə bağlı fikirlərini öyrəndik. Aqşin bildirdi ki, Azərbaycan gəncliyinin və Prezidentinin qarşısında etdiyi çıxış onun üçün böyük məsuliyyət hissi idi: "Sanki mən həm atama, həm də dövlətimə hesabat verirdim. Həyatımda heç vaxt özümü bu qədər güclü hiss etməmişdim. Gənclərin məni ayaq üstə alqışlaması mənə fəxr hissi bəxş etdi. Əmin oldum ki, Azərbaycan gəncliyi mübarizdir, atam və digər şəhidlərimiz ölməyib! Hər bir gəncimiz bir Mübariz, bir Raquf, bir Pəncəli və digərləridir! Və ən nəhayət, əmin oldum ki, Prezident bizimlə, xalqla birlikdədir. Dövlət başçısının məni bağrına basıb görüşməyi bütün şəhid əmanətlərinə olan ehtiram və qayğının təzahürü idi! Dövlət başçısının şəhidinə, qəhrəmana verdiyi dəyər idi. İndi daha tək deyiləm, xalqım, dövlətim və Ali Baş Komandanımızla birgə şəhidlərimizin qisasının alınacağı günə, Vətən torpağının işğaldan azad olunacağı zamana daha əzmlə nail olacağıq!"

### Özümə bir söz vermişəm

Bu gün Aqşin Dağlıq Qarabağın işğal faktı ilə bağlı ölkəmizdə və Türkiyədə keçirilən konfranslarda iştirak edir, şəhidlərimizin tanıdılması, gənc nəsil arasında vətənpərvərliyin təbliği məqsədilə üzvü oldiğu ictimai birliyin fəaliyyətində fəallıq göstərir. Çünki atasını torpağa tapşırdığı gündən özünə söz verib:

"Mən atamı Vətən torpağına əmanət etdiyim gün özümə bir söz verdim: onun əməllərinə, ideallarına sadiq qalmaq, xalqıma və Vətənimə layiqli bir gənc kimi yetişmək! Atamın arzusunda olduğu ADA Universitetinə qəbul oldum. Qarabağımızın, Vətənimin işğalı ilə bağlı ölkəmizdə və Türkiyədə keçirilən konfranslarda iştirak etdim, şəhidlərimizin tanıdılması, gənc nəsil arasında vətənpərvərliyin təbliği məqsədilə üzvü olduğum ictimai birliyin fəaliyyətində aktiv iştirak etdim. İnandım ki, Vətən eşqi ən uca eşqdir!"

### Azərbaycan İlham Əliyevlə daha böyük zəfərlər qazanacaq

Raquf Orucovun şanlı döyüş yolunun hər bir Azərbaycan gənci üçün örnək olduğunu düşünən Aqşin deyir ki, atası onlara hər şeydən öncə bu həyatda necə yaşamağı, Vətəni necə qorumağı, dəyərlərimizə necə sahib çıxmağı öyrədərək müqəddəs bildiyi dəyərlər uğrunda şəhidlik zirvəsinə yüksəlib. Amma Azərbaycan gəncliyinə çox qiymətli bir əmanət qoyub gedib - Vətən əmanəti!

Atasının şəhid xəbərini alanda özünü arxasız və kimsəsiz hiss edən Aqşin kiçik qardaşı ilə həyatın çətinliklərinə necə tab gətirəcəklərini fikirləşərək çox ağrıacı çəkib. Axı bu dəfə komandir həmişə döyüşə gedərkən onlara verdiyi sözünə əməl etməmişdi: "Həmişə döyüşə gedərkən sağ-salamat qayıdacağına söz verərdi və dediyinin üstündə durardı. Amma bu dəfə sözünə əməl etmədi. Vətən torpağının azadlığı uğrunda şəhid oldu. Lakin unutduğum bir məqam vardı. Onun qəhrəmanlığını başı üstünə qaldıran xalqımın sevgisi... Onu son mənzilə alqışlarla yola saldılar, atam ölümü ilə ölümsüzlüyə qovuşdu".

Bu gün Azərbaycan gəncliyini daha əzmkar, daha inamlı görən Aqşin hesab edir ki, gənclik gücünü sahib olduğu dəyərlərdən, mübarizə dolu keçmişindən və ümid vəd edən sabahından alır. Hər bir gənc inanır ki, qüdrətli, daha əzmli Azərbaycan dövləti cənab İlham Əliyevlə böyük zəfərlər qazanacaq və bu yolda gənclər hər zaman Azərbaycan Prezidentinin yanında olacaqlar.

***Rəşad BAXŞƏLİYEV, "Azərbaycan"***

# Yanvar ayında qonşu ölkələrə 191.9 milyon kilovat/saat elektrik enerjisi ixrac edilib

"Azərenerji" ASC bu ilin yanvar ayı ərzində 2.126 milyard kvt/s elektrik enerjisi istehsal edib. Bu isə ötən ilin yanvar ayı ilə müqayisədə 3 milyon kvt/s çoxdur. Belə ki, ötən ilin yanvar ayında 2.123 milyard kvt/s elektrik enerjisi istehsal edilmişdi.

Bu ilin yanvar ayında istehsal edilən 2.126 milyard kvt/s elektrik enerjisindən 191.9 milyon kvt/s qonşu ölkələrə ixrac olunub.

***"Azərbaycan"***

# ADA Universitetində Lütfi Zadə adına təqaüd təsis edildi

ADA Universitetində keçirilən "Akademik Mükəmməllik Günü"ndə yeni təqaüd təsis edildi. Universitetin İnformasiya Texnologiyaları və Mühəndislik İnstitutundakı ixtisaslar üzrə təhsil alan əlaçı tələbələr bundan sonra Lütfi Zadə adına təqaüd qazana biləcəklər. Bu təqaüd ADA Universitetinin rektoru, səfir Hafiz Paşayevin təşəbbüsü ilə təsis olunub.

AZƏRTAC xəbər verir ki, təqaüd fevralın 4-də dünya şöhrətli azərbaycanlı alim, qeyri-səlis məntiq nəzəriyyəsinin ixtiraçısı Lütfi Zadənin doğum günündə İT və Mühəndislik İnstitutunun yeddi tələbəsinə (Rəşad Nağıyev, Lalə Əsgərova, Anar Mehrəliyev, İsmayıl İsmayılov, Elnur Abdullayev, Fidan Əliyeva və Sevinc Cəfərli) təqdim edilib.

Mərasimi açan İnformasiya Texnologiyaları və Mühəndislik İnstitutunun dekanı Araz Yusubov sözügedən təqaüdün üstünlüyündən danışıb, bu cür imkanın tələbələri yaradıcılıq axtarışına daha da ruhlandırdığını vurğulayıb.

Daha sonra Lütfi Zadə adına təqaüdə layiq görülən tələbələrdən biri - İT və Mühəndislik İnstitutunun IV kurs tələbəsi Sevinc Cəfərli böyük alimin dünya elminə töhfələrindən danışıb, bu barədə təqdimat edib.

ADA Universitetinin rektoru, səfir Hafiz Paşayev tələbələrə Lütfi Zadə adına təqaüdü təqdim edib. Rektor çıxışında deyib ki, Lütfi Zadənin adı ADA Universitetinin İnformasiya Texnologiyaları və Mühəndislik İnstitutunun tələbələri üçün çox əhəmiyyətlidir. Tələbələrin təhsildə qazandıqları nailiyyətləri məhz Lütfi Zadənin adı ilə bağlamaq həm onlar üçün, həm də institut üçün vacibdir. Eyni zamanda, bu hadisənin institutun gələcək inkişafı üçün böyük əhəmiyyəti var.





Hafiz Paşayev, həmçinin Azərbaycanın ABŞ-da səfiri olduğu müddətdə Lütfi Zadə ilə görüşlərindən danışıb, xatirələrini bölüşüb. Qeyd edib ki, azərbaycanlı alim həmişə vətənpərvər mövqeyi ilə seçilirdi. 1965-ci ildə Lütfi Zadə Bakıya gələn zaman Azərbaycan SSR Elmlər Akademiyasının Fizika İnstitutunda çalışdığını deyən Hafiz Paşayev onun mühazirəsini dinlədiyini xatırlayıb. Vurğulayıb ki, o zaman gənc tədqiqatçılar belə bir azərbaycanlının dünyanın nüfuzlu alimləri ilə bir sırada dayanmasından qürur duyublar.

ADA Universitetinin "Akademik Mükəmməllik Günü"ndə, həmçinin əcnəbi tələbələr üçün nəzərdə tutulan və Xarici İşlər Nazirliyi tərəfindən maliyyələşdirilən Əlimərdan bəy Topçubaşov adına təqaüd verilib. Universitetin prorektoru Fariz İsmayılzadə bildirib ki, son semestrin nəticələrinə əsasən bu təqaüdü ADA-da təhsil alan 18 nəfər xarici tələbə qazanıb. Hər iki təqaüd proqramının qaydalarına görə tələbələr təhsil haqqından 100 faiz azad edilir. ADA Universitetinin "Akademik Mükəmməllik Günü"ndə hər semestrin nəticələrinə əsasən tədrisi yüksək qiymətlərlə başa vuran tələbələr müxtəlif təqaüdlərlə mükafatlandırılır.

# Azərbaycan nümayəndə heyəti Özbəkistanda səfərdədir

Fevralın 4-də Azərbaycanın iqtisadiyyat naziri Şahin Mustafayevin rəhbərlik etdiyi nümayəndə heyəti Özbəkistana səfərə gedib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan nümayəndə heyətinin üzvlərini Özbəkistanın Baş naziri Abdulla Aripov və Baş nazirin müavini Eler Qəniyev qəbul edəcək. Nümayəndə heyətinin üzvləri Özbəkistanın müvafiq nazirlik və şirkətlərinin rəhbərləri ilə də görüşlər keçirəcək, istehsalat sahələrinə baş çəkəcək.

Qeyd edək ki, nümayəndə heyətinin tərkibinə kənd təsərrüfatı naziri İnam Kərimov, "Azərbaycan Dəmir Yolları" QSC-nin sədri Cavid Qurbanov, "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-də (ASCO) sədri Rauf Vəliyev, "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" QSC-nin baş direktoru Taleh Ziyadov və digər rəsmi şəxslər, həmçinin bir sıra istehsal şirkətlərinin rəhbərləri daxildir.

# Bakı Ali Neft Məktəbi Gənclər Gününü qeyd edib

Bakı Ali Neft Məktəbində (BANM) Gənclər Günü münasibətilə tədbir keçirilib. Tədbirdə ali məktəbin rektoru Elmar Qasımov, Prezident Administrasiyasının Humanitar siyasət məsələləri şöbəsinin müdir müavini Məhərrəm Əhmədov, Azərbaycan Respublikasının Gənclər Fondunun icraçı direktoru Fərid Cəfərov, Yeni Azərbaycan Partiyasının Gənclər Birliyinin sədri Seymur Orucov, BANM-in professor-müəllim heyəti, administrativ heyəti və tələbələri iştirak ediblər.

BANM-in rektoru Elmar Qasımov qonaqları salamlayıb və BANM gənclərinin timsalında bütün Azərbaycan gənclərini ürəkdən təbrik edib. Rektor qeyd edib ki, dövlət gənclər siyasətinin əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuşdur. Məhz ulu öndərin 1997-ci il fevralın 2-də imzaladığı fərmana əsasən, fevralın 2-si Azərbaycan Gəncləri Günü elan edilib və o gündən sonra hər il Azərbaycanda təntənəli şəkildə qeyd olunub. Rektor vurğulayıb ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin dövlət gənclər siyasətinə verdiyi önəm və gənclərə qayğısı nəticəsində bu sahədə xüsusi dövlət proqramı həyata keçirilir, bölgələrdə gənclər mərkəzi yaradılır, gənclərin dünyaya inteqrasiya etməsinə, təhsilinə, sosial-ictimai fəaliyyətinə xüsusi dəstək verilir. "Dövlətimizin ənənələrinə sadiq qalaraq BANM də hər il bu günü böyük auditoriya ilə qeyd edir"- deyə rektor Elmar Qasımov bildirib.

Tədbirdə Prezident Administrasiyasının Humanitar siyasət məsələləri şöbəsinin müdir müavini Məhərrəm Əhmədov, Azərbaycan Respublikasının Gənclər Fondunun icraçı direktoru Fərid Cəfərov, Yeni Azərbaycan Partiyasının Gənclər Birliyinin sədri Seymur Orucov çıxış edərək gəncləri ölkəmizin inkişafı naminə sosial-ictimai fəaliyyətdə aktiv iştirak etməyə səsləyiblər.

Rektor Elmar Qasımov tədbirdə ali məktəbin inkişafına verdiyi töhfələrə görə Prezident Administrasiyasının Humanitar siyasət məsələləri şöbəsinin müdir müavini Məhərrəm Əhmədova və ali məktəbin tələbələrinin elmi-sosial inkişafına verdiyi töhfələrə görə Azərbaycan Respublikasının Gənclər Fondunun icraçı direktoru Fərid Cəfərova BANM-in Fəxri diplomunu təqdim edib.

Bakı Ali Neft Məktəbinin məzunları adından 2018-ci il "Neft-qaz mühəndisliyi" ixtisasının məzunu, BP-də Ətraf mühit əməliyyatları üzrə mühəndis Mehriban Əliyeva da tədbirdə çıxış edərək gəncləri təbrik edib və öz uğur hekayəsini onlarla bölüşüb.

Gənclər Günü münasibətilə keçirilən tədbirdə etdikləri ixtiraya görə "İlin ixtirası" adına layiq görülən Cleantech" (təmiz texnologiya) startup akselerasiya proqramı - "ClimateLaunchpad"-ın Azərbaycan üzrə qalibi olmuş, Şotlandiyanın Edinburq şəhərində Azərbaycanı təmsil etmiş və Respublika İnnovasiya müsabiqəsində 1-ci yer tutaraq 5000 manat mükafata layiq görülmüş "ThermoNorth" layihəsinin rəhbəri və üzvləri təltif olunublar. Rektor Elmar Qasımov tərəfindən komanda rəhbəri, BANM-in dosenti Əmir Rza Vəxşuriyə BANM-in diplomu, komanda üzvləri - BANM-in tələbələrinə isə sertifikatlar təqdim olunub.





Tədbirdə həmçinin Gənclər və İdman Nazirliyi və Azərbaycan Robototexnika Mühəndisliyi Akademiyasının təşkilatçılığı ilə Dünya Robot Olimpiadasının seçim turlarında ali məktəbi uğurla təmsil edərək 1, 2, 3, 4-cü yerləri qazanmış və ölkəmizi Taylandda keçirilən Dünya Robot Olimpiadasında təmsil edən BANM-in "Robo Sapiens" komandasının rəhbəri, BANM-in baş müəllimi Abbas Əlili BANM-in diplomu, komanda üzvləri - tələbələr isə sertifikatlarla təltif olunublar.

Rektor ali məktəbin "Kimya mühəndisliyi" ixtisasının 5-ci kurs tələbəsi Anar Bədəlbəylini ictimai, sosial işlərdə fəallığına, nümunəvi davranışına və ali məktəbin fəaliyyətində aktiv iştirakına görə "İlin tələbəsi" elan edib və onu ali məktəbin diplomu ilə təltif edib.

Bundan başqa, "CanSat Azerbaijan" 2018 müsabiqəsindən Azərbaycan üzrə 2-ci yeri əldə etmiş, Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin təşkil etdiyi "İdeya var" Gənclərin Ümumrespublika elmi-yaradıcılıq festivalında "İlin layihəsi" adını qazanmış "İstehsalat sularından litiumun ayrılması" layihəsinin üzvləri, eləcə də il ərzində ölkənin və ali məktəbin sosial həyatında aktiv iştirak etmiş, uğurlar əldə etmiş digər tələbələr sertifikatlar və mükafatlarla təltif olunublar.

Tədbir bədii konsert proqramı ilə yekunlaşıb.

***"Azərbaycan"***

# Vyanada Azərbaycan iqtisadiyyatına həsr olunmuş təqdimat keçirilib

Fevralın 3-də Avstriya-Azərbaycan Mədəniyyət və İş Adamları Dərnəyində (AZER-DER) Azərbaycan iqtisadiyyatına və ixrac potensialına həsr olunmuş tədbir keçirilib.

Tədbirdə çıxış edən təşkilatın sədri Yardım Günəş rəhbərlik etdiyi qurumun mədəni əlaqələrlə yanaşı, iqtisadi və ticari əməkdaşlığı da daim diqqət mərkəzində saxladığını, Azərbaycan ilə Avstriyanın işgüzar dairələri arasında körpü yaratmağa çalışdıqlarını bildirib. Qeyd edilib ki, bu tədbir bir tərəfdən ölkəyə sərmayə yatırılmasına, digər tərəfdən isə Azərbaycan istehsalı olan məhsulların dünya bazarlarına çıxarılmasına töhfə verməkdir. Bu məqsədlə yaxın aylarda iş adamlarından ibarət nümayəndə heyətinin Azərbaycana səfər edəcəyini bildirən Y.Günəş ölkəmizdə keçiriləcək görüşlərdə konkret tərəfdaşlıq əlaqələrinin yaranacağına ümidvar olduğunu vurğulayıb.





Sonra ölkəmizin Avstriyadakı səfirliyinin ikinci katibi Samir Rzayev təqdimatla çıxış edib. Azərbaycanın iqtisadi potensialı və investisiya mühiti barədə ümumi məlumat verən S.Rzayev Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkədə qeyri-neft sektorunun inkişafına, ixracyönümlü məhsul istehsalının genişlənməsinə və "Made in Azerbaijan" brendli məhsulların ixracının təşviqinə böyük diqqət ayrıldığını vurğulayıb.

Həmçinin Ələt Beynəlxalq Dəniz Ticarət Limanı ölkəni qərblə (Türkiyə və Aİ), cənubla (İran və Hindistan) və şimalla (Rusiya) birləşdirən nəqliyyat qovşağı olmaqla yanaşı, buradakı Azad İqtisadi Zona gələcəkdə istehsal olunmuş məhsulların dünya bazarlarına çıxarılması üçün yüksəkkeyfiyyətli daşınma imkanları da təqdim edəcəkdir.

Bildirilib ki, konkret sahələrə maraqlı olan iş adamlarına səfirlik tərəfindən əlavə məlumatlar təqdim edilə və onlarla Azərbaycanda konkret tərəf müqabili olan qurumlar arasında əlaqə yaradıla bilər. Eyni zamanda, Azərbaycan məhsullarının dünya bazarlarına çıxarılması və xarici bazarlarda geniş təbliği istiqamətində də ciddi işlər görüldüyü diqqətə çatdırılıb. Bildirilib ki, işgüzar dairələr Azərbaycan istehsalı olan məhsulların Avstriya və digər Avropa ölkələrinə ixracında yaxından iştirak edə bilərlər.

Təqdimat tədbir iştirakçılarının marağına səbəb olub və onların sualları cavablandırılıb.

Tədbirdə Avstriyada fəaliyyət göstərən müxtəlif şirkətlərin təmsilçiləri, eləcə də Türkiyə və Qazaxıstan səfirliklərinin nümayəndələri iştirak ediblər.

***AZƏRTAC***




# MADE İN AZERBAİJAN

# "Originar"

## Narımız bu ticarət markası altında dünya bazarına çıxır







*Əvvəli 1-ci səh.*

### Elektron suvarma sistemi

Müsahibimiz deyir ki, bağlarda dünyada məşhur olan "NaanDanJain" şirkətinin ən müasir damcılı suvarma texnologiyasından istifadə olunur. Bu da məhsuldarlığın daha da artırılmasına, vaxta, elektrik enerjisinə və su ehtiyatlarına qənaət etməyə imkan verir. Buradakı mütəxəssislər İsrailin "Tal Gil" şirkəti tərəfindən quraşdırılmış elektron sistemdən istifadə etməklə bağın suvarılmasına uzaqdan nəzarət edə bilirlər.

Heç şübhəsiz ki, zərərvericilərə və xəstəliklərə qarşı mübarizə bağçılıqda mühüm bir prosesdir. Bu səbəbdən də mütəxəssislər torpağın və ağacların vəziyyətinə diqqətlə nəzarət edirlər. Gübrə və dərmanlardan vaxtında istifadə bar verən ağacları xəstəliklərdən qorumağa kömək edir.

Bağ təsərrüfatının layihə səviyyəsinə çatması təqribən 8 il müddətinə nəzərdə tutulub. Bu zaman minimal illik məhsuldarlıq təxminən 10-12 min ton təşkil edir. Gübrə və dərmanların verilməsi, məhsulun yığılması və digər aqrotexniki qulluq üçün "Same", "Terex" və "Tumosan" kənd təsərrüfatı texnikası kimi ən son texnologiyalardan istifadə olunur. Ağacların suvarılması və gübrələnməsi tam kompüterləşdirilməklə innovativ damcılı suvarma sistemi vasitəsilə təmin edilir.

### Ötən il 500 ton nar ixrac edilib

Meyvə çeşidləməsini sürətlə təmin etmək üçün rəng, kalibr və çəki parametrlərinə görə meyvəni çeşidləmək imkanına malik "Maf Roda" şirkətinin çeşidləyici qurğusu alınıb. Bundan əlavə, meyvə tədarükündə narın saf və sürətli yığımını təmin edən "Frumaco" şirkətinin istehsalı olan xüsusi nar kombaynından istifadə edilir. Əməkdaşların hər meyvə ağacına qayğı ilə yanaşması onlara təzə və keyfiyyətli məhsulun dünya boyu qapıdan qapıya çatdırılmasına imkan verir.

2017-ci ildə şirkət Azərbaycan narının orjinallığını özündə təcəssüm etdirən, nar meyvəsinin ilk növbədə Azərbaycana məxsus olduğunu əks etdirən "Originar" ticarət markasını qeydiyyatdan keçirərək məhsulları bu marka altında bazara çıxarıb. 2018-ci ildə təsərrüfatda yığılan 2 min ton məhsuldan 500 ton nar meyvəsi ilk dəfə olaraq ixrac edilib. Bağın cavan olması nəzərə alınaraq bu il rəqəmin ən azı 2 dəfə artacağı gözlənilir. Məhsuldarlığın artırılması üçün bağ ərazisində yeni sortların əkilməsi və bərpa işləri davam etdirilir.

Eyni zamanda müəssisənin məsul şəxsləri müxtəlif dövlət orqanlarının tədbirlərində fəal iştirak edir. "Mars FK Ltd" Azərbaycan Nar İstehsalçıları və İxracatçıları Assosiasiyasının (ANİİA) aktiv üzvüdür və daim təşkil edilən müxtəlif tədbirlərdə iştirak edir. 2018-ci ilin noyabrında şirkət Göyçayda keçirilən Nar bayramında ANİİA tərəfindən təşkil edilən vahid stenddə öz məhsullarını festival iştikrakçılarına təqdim edib. Eyni zamanda müəssisənin təmsilçilərinin Azərbaycan Sahibkarlar Konfederasiyası, İqtisadiyyat Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, Azpromo və digər qurumlar tərəfindən təşkil edilən ixrac missiyaları, beynəlxalq forumlar, biznes danışıqları, təlimlər və digər tədbirlərdə vaxtaşırı iştirakı təmin olunur. Bu şirkət həmçinin nüfuzlu yerli və beynəlxalq kənd təsərrüfatı sərgilərinin daimi iştirakçısıdır.

### Xarici şirkətlərlə bir sıra müqavilələr bağlanılıb

Şirkət 2016-cı və 2018-ci illərdə "SİAL", 2017-ci ildə "Anuga", 2018-ci ildə "Fruit Logistica", "Caspian Agro" və "WorldFood" sərgilərində iştirak edərək xarici şirkətlərlə bir sıra müqavilələr bağlayıb.

Dərman və gübrə təchizatının təşkil edilməsində müəssisə "Aqrolizinq" ASC, "Aqrokimya" MMC və digər təşkilatlarla əməkdaşlıq edir. Bundan başqa, şirkət Sahibkarların İnkişaf Fondunun (SİF) yaratdığı geniş imkanlardan yararlanmağı planlaşdırır. SİF vasitəsilə onlar mövcud avadanlıq bazasının genişlənidirilməsini və ixrac potensialının artırılmasına nail olmağı düşünürlər. Gələcək planlara həmçinin nar tingçiliyinin inkişaf etdirilməsi, müasir aqrotexniki qulluq mexanizmlərinin təsərrüfatda tətbiq edilməsi də daxildir. Hesab edilir ki, bunların vasitəsilə Azərbaycanın kənd təsərrüfatının inkişafına daha böyük töhfə verməları mümkünləşəcək.

***Əli SƏLİMOV,***
***"Azərbaycan"***

# 170-dən çox ölkə, 3088 çeşiddə məhsul

## Azərbaycanda ixrac idxalı 8,6 milyard dollar üstələyir

*Əvvəli 1-ci səh.*

Xurma isə (114,5 milyon dollar) bu siyahıda üçüncü yerdə qərarlaşıb.

Ümumiyyətlə, 2018-ci ilin yanvar-dekabr ayları ərzində meyvə-tərəvəz ixracı 560 milyon, plastmas və onlardan hazırlanan məmulatların ixracı 118,6 milyon, alüminium və ondan hazırlanan məmulatların ixracı 112,2 milyon, elektrik enerjisinin ixracı 65,6 milyon, qara metallar və onlardan hazırlanan məmulatların ixracı 86,2 milyon, pambıq lifi ixracı 80,5 milyon, kimya sənayesi məhsullarının ixracı 78,1 milyon, pambıq ipliyi ixracı 24 milyon dollar təşkil edib. 2017-ci illə müqayisədə 2018-ci ildə pambıq lifinin ixracı 2,4 dəfə, elektrik enerjisinin ixracı 29 faiz, pambıq ipliyinin ixracı 49 faiz, plastmas və onlardan hazırlanan məmulatların ixracı 17 faiz, meyvə-tərəvəzin ixracı 11 faiz, qara metallar və onlardan hazırlanan məmulatların ixracı 4 faiz artıb.







### Ən çox mal ixrac etdiyimiz ölkə Rusiyadır

2018-ci ilin dekabr ayında isə qeyri-neft sektoru üzrə ixrac 157 milyon dollar təşkil edib. Ötən ilin dekabr ayında qeyri-neft sektoruna aid ən çox mal ixrac edilən ölkələrin siyahısına Rusiya (63,8 milyon dollar) başçılıq edib. Daha sonra bu siyahıda Türkiyənin (23,6 milyon dollar), İsveçrənin (12,2 milyon dollar), Gürcüstanın (7,4 milyon dollar), İranın (5,4 milyon dollar) və digər ölkələrin adları var.

2018-ci ilin dekabr ayında qeyri-neft sektoru üzrə ixracda xurma (25,4 milyon dollar) birinciliyi ələ alıb. Pomidor (15,2 milyon dollar) ilə fındıq ləpəsi (13,4 milyon dollar) isə ikinci və üçüncü yerləri bölüşüblər.

### 111 ölkə, 514 milyon dollarlıq ixrac sifarişi

2018-ci ilin 12 ayında "Azexport.az" portalına daxil olan ixrac sifarişlərinin dəyəri 514 milyon dollar təşkil edib. 2017-ci il ilə müqayisədə 2018-ci ildə portala daxil olan ixrac sifarişləri dəyər baxımından 39 milyon dollar artıb. Bu sifarişlər dünyanın 111 ölkəsindən daxil olub.

İki il ərzində portala daxil olan məhsul sifarişlərinə nəzər yetirək:

2017-ci ilin 12 ayında portala daxil olan ixrac sifarişlərinə görə top 10 məhsul - şərab, fındıq ləpəsi, alma, nar şirəsi, quru süd, yumurta, ipək xalça, mühərrik yağı, qənnadı məhsulları, tütün.

2018-ci ilin 12 ayında daxil olan ixrac sifarişlərinə görə top 10 məhsul - pambıq, pambıq yağı, alma, pomidor, toyuq əti, yumurta, şərab, nar, tütün, soğan.

2017-ci ilin yanvar ayından 2018-ci ilin 31 dekabr tarixinə kimi (24 ay ərzində) portala dünyanın 115 ölkəsindən daxil olan ixrac sifarişlərinin dəyəri 989,1 milyon dollar təşkil edib.

Məlumat üçün qeyd edək ki, 2017-ci ilin yanvar ayından 2018-ci ilin 31 dekabr tarixinə kimi (24 ay ərzində) "Azexport.az" portalına dünyanın 115 ölkəsindən daxil olan ixrac sifarişlərinin dəyəri 989,1 milyon dollar təşkil edib.

İcmalın yanvar sayında "Azexport.az" portalı vasitəsilə təqdim olunan Sərbəst Satış Sertifikatının Azərbaycan şirkətlərinin yeni bazarlara çıxış imkanlarını artırması barədə də geniş məlumat verilib.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***





# Avtomobil sənayesinin flaqmanı

## Gəncə Avtomobil Zavodunda istehsal keyfiyyətcə yeni mərhələyə qədəm qoyub

**Regionların sosial-iqtisadi inkişafı ilə bağlı III Dövlət Proqramı uğurla yekunlaşdı. Ötən həftə proqramın yekunları ilə bağlı keçirilən konfrans əslində regional inkişaf proqramlarının icra edildiyi ötən 15 ilin hesabatı idi.**

Bu dövrdə ümumi daxili məhsulun 3,3 dəfə, qeyri-neft sektorunun 2,8 dəfə, sənaye potensialının 2,6 dəfə artması hər bir dövlətin həsəd aparacağı dinamik inkişaf nümunəsidir. 15 ildə ölkədə 100 mindən çox müəssisə yaradılıb ki, bu da iqtisadiyyatın qeyri-neft sektorunun inkişafına və sənayeləşmə prosesinə böyük təkan verib.



### 15 yaşlı zavod

Regional inkişaf proqramlarının icra edildiyi dövrdə fəaliyyətə başlayan və elə yerləşdiyi bölgənin sosial-iqtisadi inkişafında böyük rolu olan istehsal müəssisələrindən biri də Gəncə Avtomobil Zavodudur. Əslində zavodun əsası hələ sovet hakimiyyəti illərində, 1986-cı ildə qoyulub. Lakin Moskvanın tikinti barədə qərarı ovaxtkı Ermənistan rəhbərliyi tərəfindən böyük qısqanclıqla qarşılanıb və bunun məhz Ermənistan ərazisində reallaşmasına böyük səylər göstərilib. Ancaq Heydər Əliyevin nüfuzu və möhkəm iradəsi sayəsində avtomobil zavodunun təməli Azərbaycanda, Gəncədə qoyulur. Müəssisənin tikintisi 1989-cu ildə başa çatdırılmalı, 1990-cı ilin əvvəlindən isə artıq 1,5 tonluq yük avtomobillərinin istehsalına başlanmalı idi. Lakin Sovetlər birliyinin dağılması nəticəsində zavodun tikintisi yarımçıq qalır. Nəhayət, Prezident İlham Əliyevin diqqət və qayğısı nəticəsində 2004-cü ilin dekabrında, regional inkişafla bağlı I Dövlət Proqramının təsdiq olunmasından sonra Gəncə Avtomobil Zavodu da işə salınır və müəssisədə yığımdan keçən ilk avtomobil işıq üzü görür. İlk vaxtlarda Rusiyanın Naberejnıye Çelnı şəhərində yerləşən azlitrajlı avtomobillərin istehsalı üzrə zavodla bağlanmış müqaviləyə əsasən "VAZ-11113"-"Oka" markalı avtomobillərin yığımına başlanır. Ümumilikdə 300-dən artıq "Oka" yığılaraq Qarabağ müharibəsi əlili və Böyük Vətən müharibəsi iştirakçılarına verilir.

İlk addımlarını müvəffəqiyyətlə atan Gəncə Avtomobil Zavodu 2005-ci ildə "UAZ" ASC ilə imzalanan razılaşmaya əsasən Rusiyanın "UAZ" avtomobillərinin 10 modelinin yığımına başladı. Bir il müddətində 243 ədəd "UAZ" avtomobili yığılaraq istifadəyə verildi. Bundan sonra 2005-ci ilin oktyabr ayında Gəncə Avtomobil Zavodu ilə Çinin "Sap Qan" şirkəti arasında müqavilə imzalandı. Bu sənədə əsasən müəssisədə 7 modeldə ortatonnajlı yük maşınlarının yığımına başlanıldı. Bir il müddətində ümumilikdə 68 "Can Qan" markalı avtomobil yığılaraq istifadəyə verildi.

### Belarusla əməkdaşlıq istehsalda yeni səhifə açdı

2006-cı ildə müəssisənin həyatında yeni bir dövr başladı. Belə ki, Azərbaycan Prezidenti İlham Əliyevin 2006-cı ilin oktyabrında Belarusa səfəri zamanı bu ölkənin traktor və avtomobil zavodları ilə Gəncə Avtomobil Zavodu arasında əməkdaşlığın yaradılması barədə Belarusun dövlət başçısı ilə razılığa gəlindi. Bu razılığa əsasən Gəncə zavodu həmin müəssisələrlə uzunmüddətli əməkdaşlıq müqaviləsi bağladı. Bundan sonra Gəncə Avtomobil Zavodunda ümumi ərazisi 20 min kvadratmetr olan sexdə təmir-bərpa işləri görüldü, yeni texnoloji yığım xətləri quraşdırıldı. Yeni sex müasir avadanlıqlar və texnika ilə təchiz olundu. Müqaviləyə uyğun olaraq 2007-ci ilin mart ayında Belarusdan daxil olan komplektləşdiricilərin əsasında "Belarus 80.1", "Belarus 82.1", "Belarus 1221", "Belarus 1025", "Belarus 892" və "Belarus 80X" modeldə traktorların istehsalına başlanıldı. Həmin ilin aprel ayından isə MAZ avtomobillərinin yığımı təşkil olundu. İndiyədək 11 ildən artıq əməkdaşlıq çərçivəsində müəssisə tərəfindən "Belarus" traktorunun 10 modelinin (o cümlədən, ekskavatorlar, asfaltkəsən, qartəmizləyən texnikaların, traktor üçün qoşqular və istənilən növ asma avadanlıqları və d.) və MAZ avtomobilinin 20 modelinin (o cümlədən, MAZ markalı avtomobillərin bazasında yanacaq və sudaşıyan maşınlar, yüközüboşaldan, dartıcı avtomobillər, assenizasiya maşınları, təmir emalatxanaları və kommunal maşınları) yığım istehsalı mənimsənilib.

Ötən illərdə Gəncə Avtomobil Zavodunun Belarus müəssisələri ilə ticarət dövriyyəsi 402 milyon ABŞ dolları məbləğində təşkil edib. Bu dövrdə ümumilikdə müxtəlif modeldə 10 min 581 ədəd traktor (o cümlədən, pambıqyığan, kommunal, minitraktorlar və xüsusi təyinatlı texnika) və 3204 ədəd MAZ avtomobili (o cümlədən, su və yanacaqdaşıyanlar, yüközüboşaldanlar, avtokranlar, HALLER kommunal maşınları), 75 ədəd MAZ avtobusu, 360 ədəd MAZ avtomobil qoşqusu, 20 ədəd MZKT ağırtonnajlı yük dartıcısı yığılıb.

Gəncə Avtomobil Zavodu Belarusun digər müəssisələri ilə də işbirliyi yaradıb. Belə ki, Minsk Təkərli Dartıcılar Zavodu, Smorqon Avadanlıqlar Zavodu, Mozırsk Maşınqayırma Zavodu, Bobruysk Ehtiyat Hissələri və Avadanlıqlar İstehsalı Zavodu ilə sıx əməkdaşlıq edir. Bundan başqa, 2010-cu ildə Almaniyanın HALLER şirkəti, Belarusun Minsk Avtomobil Zavodu və Gəncə Avtomobil Zavodu arasında üçtərəfli müqavilə imzalanıb. Bu günədək ümumilikdə 105 ədəd 21 kubmetr tutumlu "Avro 4" standartına cavab verən kommunal maşın istehsal olunub.

Xatırladaq ki, 2018-ci il aprelin 2-də müəssisədə 10 mininci traktor istehsal edilib. Bununla əlaqədar keçirilən tədbirdə Belarus Respublikasının Baş nazirinin müavini Vladimir Semaşko, Azərbaycanın Baş nazirinin birinci müavini Yaqub Eyyubov, Minsk traktor və avtomobil zavodlarının baş direktorları iştirak ediblər. Qonaqlar zavodun fəaliyyətini yüksək qiymətləndirib, texniki və kadr potensialında perspektivləri bir daha nəzərdən keçiriblər.

Gəncə Avtomobil Zavodu 2018-ci ili də uğurla başa vurdu. Ötən il müəssisədə mindən çox "Belarus" traktoru, 70-ə yaxın traktor qoşqusu, 60-a yaxın KamAZ avtomobili, 100 ədəd "Ural" avtomobili, 60-dan çox qoşqulu su çəni, HALLER markalı məişət tullantıları daşıyan avtomobillər istehsal olunub. Bütövlükdə il ərzində Gəncə Avtomobil Zavodu Azərbaycan bazarını müxtəlif modifikasiyalı traktor və avtomobil texnikası ilə təchiz edib.

### Azərbaycanda kombayn və elektrik avtobusları istehsal ediləcək

2019-cu ildə isə Gəncə Avtomobil Zavodunun fəaliyyətində yeni keyfiyyət dəyişikliklərinin baş verəcəyi gözlənilir. Bunu yanvarın üçüncü ongünlüyündə Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramovun və Milli Məclisin deputatı, Gəncə Avtomobil Zavodu Müşahidə Şurasının sədri Xanlar Fətiyevin Belarusda keçirdiyi görüşlər də təsdiq edir.

Səfər barədə təəssüratlarını bölüşən Xanlar Fətiyevin sözlərinə görə, Belarusa səfər zamanı bir sıra müəssisələrdə istehal olunan nəqliyyat vasitələrinin, kənd təsərrüfatı texnikalarının Azərbaycanda birgə istehsalı barədə müzakirələr aparıb, səmərəli görüşlər keçiriblər. Müzakirə olunan məsələlərdən biri birgə elektrik avtobuslarının istehsalı olub. "Belkommunmaş" ASC-nin məhsulu olan elektrik avtobuslarının birgə istehsalı Belarusun Baş nazirinin müavini Mixail Rusıy ilə görüşdə ətraflı müzakirə olunub. Baş nazirin müavini bildirib ki, Gəncə şəhəri bir sıra investisiya layihələrinin reallaşdırılması üçün əlverişli regiondur. O cümlədən Gəncə Avtomobil Zavodunda birgə elektrik avtobusları da istehsal edilə bilər. Bu barədə danışan Xanlar Fətiyev onu da bildirdi ki, istehsala başlamazdan əvvəl Gəncədə belaruslu mütəxəssislərin iştirakı ilə monitorinqlər keçiriləcək və şəhərdə hansı tutumlu elektrobuslara ehtiyac olduğu müəyyənləşdiriləcək. Bundan sonra tutumundan asılı olaraq kiçik və böyük qabaritli elektrobuslar istehsal olunacaq. Elektrobuslar istifadəyə verilməzdən əvvəl şəhərin müxtəlif ərazilərində enerjidoldurma stansiyaları quraşdırılacaq.

Qomel şəhərindəki "Qomselmaş" ASC ilə birgə kombayn istehsalı barədə müzakirələr aparılıb və cari ildə Gəncədə bu kənd təsərrüfatı texnikasının istehsalına başlamaq planlaşdırılır. Qeyd edək ki, "Qomselmaş" ASC-nin istehsal etdiyi kombaynlar Azərbaycanın kənd təsərrüfatı sahəsində uğurla tətbiq edilib. Gəncə Avtomobil Zavodunda isə həmin kombayn və digər kənd təsərrüfatı texnikalarının birgə istehsalı üçün əlverişli şərait mövcuddur. Belə ki, zavodun gücü ildə 100-150 kombaynı birgə istehsal etməyə imkan verir.

Səfər zamanı Belarus-Azərbaycan traktorlarının Türkiyədə yığılması məsələsi də müzakirə olunub. Xanlar Fətiyevin sözlərinə görə, traktorların Türkiyədə yığılması üzrə zavodun tikintisi başa çatmaq üzrədir və bu ilin birinci rübünün sonunadək həmin müəssisədə ilk traktorların yığılması nəzərdə tutulur. Türkiyədəki zavodun konveyerindən 5 minə qədər traktorun buraxılması planlaşdırılır. İlkin mərhələdə layihənin istehsal gücü 2,5 min ədəd miqdarında yerinə yetiriləcək.

Qeyd edək ki, nümayəndə heyətinin səfəri zamanı Belarusun STV televiziya kanalında Gəncə Avtomobil Zavodunun fəaliyyətindən bəhs edən 17 dəqiqəlik xüsusi reportaj yayımlanıb. Reportajda Gəncə Avtomobil Zavodunun fəaliyyətə başlamasından, Belarus müəssisələri ilə birgə əməkdaşlıqdan, prezidentlər İlham Əliyev və Aleksandr Lukaşenkonun zavodun fəaliyyətinə göstərdikləri xüsusi diqqətdən, Şəmkir rayonundakı fermer təsərrüfatlarının timsalında ölkəmizin kənd təsərrüfatında Belarus traktorlarının işlənməsindən, zavodda çalışan 600 nəfərə yaxın işçiyə göstərilən yüksək sosial qayğıdan, Türkiyədə traktorların birgə istehsalına başlanılmasından bəhs olunub. Jurnalistin suallarını Gəncə Avtomobil Zavodu Müşahidə Şurasının sədri Xanlar Fətiyev cavablandırıb. Qeyd edək ki, Belarusun kütləvi informasiya vasitələrində Azərbaycan nümayəndə heyətinin səfəri geniş işıqlandırılıb.

Bu gün Gəncə Avtomobil Zavodu sənaye sahəsində Belarus-Azərbaycan uğurlu əməkdaşlığının real təsdiqidir. On iki ildir bu zavod traktor, avtomobil, kommunal texnika və xüsusi texnikanın yığılması əməliyyatlarının həyata keçirilməsində Belarusun aparıcı müəssisələri ilə fəal əməkdaşlıq edir. Ən əsası, bu zavod Azərbaycanda sənayeləşmə istiqamətində həyata keçirilən dövlət siyasətinin uğurlu bəhrəsidir. Bu mənada ötən 15 ildə qarşıya qoyulan vəzifələri layiqincə yerinə yetirən müəssisə Azərbaycan sənayesinin flaqmanlarından biridir.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***



## İmadəddin Nəsimi - 650

Hüseynbala MİRƏLƏMOV

# SON SƏFƏR

Povest

Seyid Əli Şahxəndana sarı dönüb dedi:

- Hə, balası, hazırlaş, şah bizi axşama qonaq çağırır.

Şahxəndanın rəngi yüngülcə qızardı və bunu sezən Seyid Əli gülümsündü:

- Balası, qorxma, şah arxamızdadır və bizi himayə edir. Sən birdəfəlik bil ki, kafir, ya da dinsiz deyiləm. Əksinə, dindaram, mömünəm, qəzəllərimdə də dini, Allahın qüdrətini tərənnüm edirəm. Odur ki, sən, mən oldum-olmadım, heç kimdən qorxma.

Onlar qəbiristanlıqdan çıxıb, giriş qapısının (giriş qapısı həm də çıxış qapısı idi, yəni, qəbiristanlığın bir qapısı vardı) ağzında dayandılar. Adamlar, ikibir, üçbir gəlib yanlarından keçirdilər. Aralarında tanışlar da vardı - bəziləri salam verir, bəziləri isə etinasız keçirdi...

Şahxəndan dedi:

- Dadaş, mən sənə görə qorxuram, özümə görə yox... Əslində mənimlə heç işi olan da yoxdur. Məhəllə uşaqlarıdı, hərdən sataşırlar, onları da dayı oğlunun adı ilə qorxudub qaçırdıram. Mənim bütün narahatlığım sənə görədir. Çünki məni yox - mən kiməm ki - səni kafir hesab edirlər. Mən bilirəm sən kafir deyilsən, camaat isə bilmir. Nə vaxtsa, kimsə orda-burda ağzından qaçırıb ki, sən kafirsən, odur-budur düşmüsən ağızlara. Qəzəllərin, qəsidələrin də o qədər qəliz, fikirlərin o qədər qarmaqarışıqdı ki, avam camaat oxuyub heç nə başa düşmür. Başa düşməyəndə də deyir ki, bu elə kafirdi ki, kafir!

Onlar astadan söhbət eləyə-eləyə evlərinin yolunu tutmuşdular. Şairlər şairi gülümsəyib dedi:

- Balası, sən lap böyük adamlar kimi danışırsan.

Şahxəndan güldü.

- Məni sənin yazdıqların, bir də dönə-dönə üzünü köcürtdüyüm Qurani-Kərim belə vaxtımdan əvvəl böyütdü.

Seyid Əli söhbətin uzandıqca uzanacağını hiss edib dedi:

- Gedək bazara, baxaq bir nə var-nə yox. Yəqin Gülnaz xala artıq gəlib, günortaya bir şey bişirər, yeyərik. Axşamdaki, sarayda qonaqlıq, görək şahın aşpazları nə hazırlayıblar...

Şahxəndan dedi:

- Dadaş, doğrudan məni də aparacaqsan ziyafətə?

- Əlbəttə, axı, sən elə-belə adi adam deyilsən, mirzəsən, mirzə! Mirzə Şahxəndan!

Hər ikisi ucadan qəhqəhə çəkib güldü.

- Onlar pitixanaların, dəmirçixanaların, dərzi, papaqçı, misgər, dulusçu dükanlarının önündən keçirdilər. Seyid Əli qabağına çıxanların hamısına salam verirdi - alan da olurdu, almayan da. Papaqçı dükanlardan birinin qabağında birdən-birə uzunboğaz, xırdabaş bir kişi çölə çıxdı və şairlər şairini qucaqladı. Bu, çoxdanışan usta Sucəddin idi:

- Xoş gəlmisən, xoş gəlmisən, - dedi. - Eşitdim ki, Misirə getmisən, sən Allah, de görüm Səlahəddin şah səlibçiləri müqəddəs yerlərdən tamam qovub çıxara bildi, ya yox?

Seyid Əli başını bulayıb güldü.

- Ay usta, bu ki, çoxdanın söhbətidir. Bir də, belə şeylər nəyinə lazımdı? Sən de görüm, mənim bu qardaşım üçün neçə günə yaxşı, əmiri bir papaq tikə bilərsən?

Usta Sucəddin Şahxəndana baxdı, sonra onun əlindən tutub, arxasınca dükana sarı dartdı.

Seyid Əli soruşdu:

- Uşağı hara aparırsan?

- Başının ölçüsünü götürüm də...

Usta Şahxəndanı kətilin üstündə oturtdu, iplə başının ölçüsünü götürdü, sonra üç barmağını yuxarı qaldırdı - yəni, bu gün yox, sabah da yox, o biri gün papaq hazır olacaq, gəlib apara bilərsən.

Şahxəndan qardaşının yanına qayıtdı. Birlikdə bazara girdilər. Seyid Əli yağ, bal, qaymaq, halva, düyü, zəfəran, sarıkok, darçın alıb, zənbilə yığdı. Şahxəndan dedi:

- Bu qədər şeyi neyləyəcəksən? Səhər də almısan.

*(Əvvəli qəzetin 31 yanvar və 2 fevral tarixli nömrələrində)*

- Eybi yoxdu, gəlib-gedən olar... Qoy süfrəmiz boş görünməsin...

Şahxəndan kənardan göz qoyurdu ki, kim qardaşına necə baxır. Birdən onun nəzərlərini çiynində ox və sadaxlı, iri gözlərinin bəbəkləri həddindən artıq böyük olan və dəli kimi ora-bura baxan birisi cəlb etdi. Fikirləşdi ki, maraqlıdır, bu, qardaşına niyə belə baxır, qeyri-ixtiyari onu izləməyə başladı. Nə qədər ki, camaatın arasında idilər, qorxmağa ehtiyac yox idi, amma təklənsəydilər...

Seyid Əli baş verənlərdən xəbərsiz halda satıcılarla söhbət edir, deyib-gülür, zarafatlaşırdı...

Bazar səs-küylü idi. Qəsidə oxuyan dərvişlərin səsi bütün səsləri batırırdı. Onlar uzun piştaxtaların arası ilə gəzir, pullu və məşhur adam görəndə, qabağını kəsir və oxuya-oxuya pul tələb edirdilər...

Seyid Əli ağzına qədər dolu olan zənbilə baxıb dedi:

- Görəsən, bir şey yaddan çıxmayıb ki?

Şahxəndan güldü.

- Əlbəttə, çıxıb. Qulağını bəri tut deyim. Oxlu-kamanlı bir adam səni izləyir, şübhəsiz, pis niyyəti var, bura adamına oxşamır, yəqin, kimsə göndərib, ehtiyatlı ol. - Sonra əlavə etdi: - Dadaş, gör nə deyirəm: sən ipək dükanının ön qapısından girib, arxa qapısından çıxarsan və gedərsən evimizə, mən də gələcəyəm, qoy hərif səni nə qədər gözləyir, gözləsin...

Seyid Əli Hacı Muxtarın böyük ipək dükanının arxa - xəlvəti qapısından çıxarkən, qeyri-ixtiyari düşündü: deməli, məsələ çox ciddidir. Məni artıq təqib edirlər. Burada olmadığım iki-üç ildə mollalar camaatı qızışdırıb yoldan çıxarıblar. Axşam qonaqlıqda məsələni gərək İbrahim şaha deyəm, başqa çarə yoxdur. Yaxşı ki, bu vaxta qədər Şahxəndana dəyib-dolaşmayıblar. Belə də avam camaat olar?

Seyid Əli dodağının altında vərə-vurd eləyə-eləyə, axır ki, gəlib evlərinə çatdı. Şahxəndan artıq onu qapının ağzında gözləyirdi. Birlikdə həyətə girdilər. Gülnaz xala ev-eşiyi silib-süpürmüş, səliqə-səhmana salmışdı. Yemək də qazanda buğlanırdı.

Seyid Əli Şahxəndana dedi:

- Görən bu köpəkoğlu kim idi?

- Bilmirəm. Mən yolüstü hakimə xəbər verdim. Axtarıb, kim olduğunu müəyyən edəcəklər. Bəlkə də şübhələndiyimizi bilib, aradan çıxıb. Dadaş, deyəsən, qorxdun ha... Düz eləyirsən, üzünə su vurursan.

Hər ikisi güldü.

Şir biləkli, gənc və sağlam Seyid Əli təmiz, ağappaq məhrəba ilə əl-üzünü qurulayandan sonra dedi:

- Qardaşın bu uzun illərdə tozlu yollarda o qədər caniyə rast gəlib, o qədər ölümün gözünün içinə baxıb ki, indi bir sərsəri nədir ki, ondan qorxsun. Sadəcə, Şamaxıda, qohum-əqrəba, dost-tanış qabağında ölmək rüsvayçılıqdır. Bir də səndən ötrü qorxuram.

Əlli-əlli beş yaşlarında olan Gülnaz xala onu qucaqlayıb, üz-gözündən öpdü.

- Mənim pəhləvan balam xoş gəlib! Mənim sultan balam xoş gəlib!

Şahxəndan onun sözünü kəsdi:

- Xala, pəhləvanı başa düşdüm, bəs sultan nə deməkdir?

Gülnaz xala əllərini belinə vurub dedi:

- Bəs necə?! Mənim balam şeirin sultanıdır! Bütün Şirvanda ondan ad-sanlı, şöhrətli şair yoxdur! Elə bilirsən xalan savadsız arvaddır, heç nə qanmır? Sən şeirlərin üzünü köçürəndə, bərkdən oxuyursan, elə bilirsən eşitmirəm? Hələ ordan-burdan yadımda da qalır:

Ta üzün gördüm, nigara, qəmdən azad olmuşam,
Qulluğunda, padişahım, hüsnünə şad olmuşam.

Amma mənasını başa düşmədiyim sözlər də olur. Məsələn: "Ta camalın müzhəfindən oxuram səbüsməsan..." Səbüsməsan nədir, oğlum? Təmiz türkcə yazsana?

Seyid Əli güldü. Şahxəndan başını buladı:

- Nəyə gülürsən? Gülnaz xala düz deyir də.

Seyid Əli əlinin arxası ilə gözünün yaşını sildi:

- Elə düz dediyinə görə gülürəm də.

Gülnaz xala daha söhbəti uzatmayıb dedi:

- Yaxşı, gedim görüm xörək nə oldu. Yəqin acmısınız.

❖ ❖ ❖

Seyid Əli nahardan sonra eyvanda - taxta çarpayıda uzanıb xəyallara daldı. Fikirləşdi ki, bugünkü hadisəyə necə əncam çəksin. O, həmişəlik gözəl vətəninə - Şirvana qayıdıb evlənəcəyinə və ömrünün qalanını dost-aşna arasında keçirəcəyinə, yazıb-yaradacağına qərar vermişdi. Fəqət şirvanlıların, lap elə bakılıların da onun əleyhinə olduqlarını - düşməninə çevrildiklərini görüb sarsılmışdı. Sadəcə, qardaşı qorxmasın deyə özünü saymazlığa vurmuşdu - guya ki, onlar fikir verməli şey deyilmiş. Əslində isə, məsələ çətin və qəliz idi. Zarafat deyil, birdən-birə sənə "kafir" damğası vururlar, deməli, burada, qala bilməzsən. Qara çamaatın fikrini dəyişmək isə elə də asan deyil. Ən azı, müfti və ya qazı fitva verib, günahsız olduğunu xalqın çox yığıldığı yerlərdə bəyan etməli - car çəkməlidir. Amma məsələ bununla da bitmir. Kim zəmanət verə bilər ki, yol gedərkən hansı bir dəli qəfildən ona hücum etməyəcək?

Yay günü uzun olur. Şahxəndan öz işi ilə məşğul idi - divan üzü köçürürdü. Gülnaz xala aşağıda qabqacaq yuyurdu. Qaçalan başını qollarının üstünə qoyub mürgüləyirdi.

Seyid Əli gün əyiləndə yuxudan ayıldı. Həyətə düşüb yuyundu və Şahxəndana dedi:

- Yatıb qalmışam. Hazırlaş, gedək.

Onlar əyri-üyrü küçələrdən, müxtəlif peşə sahiblərinin adları ilə çağrılan məhəllələrdən keçib, nəhayət, Şirvanşahlar sarayının qırmızı kərpicdən hörülmüş hündür və əzəmətli hasarına yaxınlaşdılar. Hər tində quraşdırılmış gözətçi qülləsində iki sərbaz keşik çəkirdi. Seyid Əli Şahxəndanın əlindən tutub, sarayın darvazasına sarı gedirdi. Bunu görən bir gənc sərbaz çığırırdı:

- Ey, dayan! Hara belə?

Seyid Əli barmağı ilə göstərib dedi:

- Saraya!

- Gənc sərbaz əlini qılıncına atıb, onların qabağını kəsmək istəyirdi ki, darvaza gözətçisi - sərbazbaşı Lətifi ona acıqlandı:

- Burax gəlsinlər! Deyəsən, sən şairlər şairi Seyid Əli İmadəddin Nəsimini tanımadın!

Gənc sərbaz bunu eşidən kimi geri çəkildi. Seyid Əli ilə Şahxəndan içəri keçdilər. Həyət müxtəlif geyimli adamlarla dolu idi. Onlar astadan danışır, birbirlərinə göstəriş verir, nəsə aparıb-gətirirdilər. Pilləkənlərin altında dayanmış Saray əyanı Əbdülsaleh Dərbəndi şairi görən kimi qabağına yeridi:

- Ey böyük insan, haralardasan? Nə vaxt soruşuruq, deyirlər Qahirədəsən, nə bilim, Şamdasan, Hələbdəsən, Bağdaddasan. Bəs Şirvanda nə vaxt olacaqsan? Vallah, gözlərimə inanmıram. Adın əlahəzrətin dilindən düşmür, amma özün yoxsan, bütün pərvanələr işığa gəlir. Bizim pərvanə işıqdan qaçır.

Seyid Əli nəsə demək istəyərkən, Əbdülsaleh Dərbəndi onu danışmağa qoymayıb dedi:

- Xülasə, xoş gəlmisən, buyur yuxarı, məclis əhli, şəxsən əlahəzrət özü səni gözləyir.

Seyid Əli və Şahxəndan ayaqqabılarını çıxarıb, içəri keçdilər. Məclis ahəstə idi. Lap yuxarıda ləl-cəvahiratla bəzədilmiş şiş papağı şamların işığında bərq vuran orta boylu, enli bədənli bir adam əyilib yanındakı mavi paltarlı bir şəxsin dediklərinə qulaq asırdı. O, qapının ağzında dayanmış Seyid Əli İmadəddin Nəsimini görüb, əli ilə yanındakına susmağı işarə etdi və dedi:

- Seyid Əli, bura buyur!

Bütün məclisdəkilər bayaqdan bəri heç kimin əhəmiyyət vermədiyi Seyid Əli ilə Şahxəndana baxdılar.

Şahxəndan əlini qardaşının əlindən çəkib, yerində qalmaq istədi. Bunu hiss edən İbrahim şah dedi:

- Qardaşını da özünlə gətir! Belə gözəl xətti olan gənc gərək yuxarı başda əyləşsin.

Tər basmış Şahxəndan qardaşının əlini buraxmadan ayaqları bir-birinə dolaşa-dolaşa qalın kilimin üstü ilə yeridi. Şairlər şairi onun bu həyəcanını hiss edib, əlini yüngülcə sıxdı və astadan pıçıldadı:

- Sakitləş, şah bizim dostumuzdur.

Onlar yuxarı başa çatanda, İbrahim şah ayağa qalxdı, bunu görən bütün məclis əhli müntəzir oldu. İbrahim şah əvvəlcə Seyid Əli İmadəddin Nəsimi, sonra da Şahxəndanla görüşüb, hər ikisini yüngülcə qucaqladı və üzünü şairlər şairinə tutub dedi:

- Əzizim, sən vətənə qarşı nədən bu qədər etinasızsan? İlin on bir ayını yad ellərdə olanda, heç olmasa, bir ayını da Şirvanda ol.

Seyid Əli şahın ondan cavab gözlədiyini görüb dedi:

- Əlahəzrət izin versə, burada az olmağımın səbəbini deyərəm.

İbrahim Şah əvvəlcə üzünü məclis əhlinə tutub:

- Əyləşin, - dedi. Sonra Seyid Əli ilə Şahxəndana yanında yer göstərərək, özü də əyləşdi:

- Əvvəla, de görüm neçə gündür gəlmisən, niyə bizə bir baş çəkmirsən? Özünü də heç cür tapmaq olmur.

Seyid Əli yüngülcə gülümsündü:

- Əlahəzrət, əgər bəndəniz dünən qürub çağı Şamaxıya varid olubsa, bu ziyarət ilk təşrif kimi zatialilərinizə olan böyük hörmətimizə sübut deyilmi?

- Xeyir, xeyir! - deyə vəcdə gələn əlahəzrət qəhqəhə çəkdi:

- Aşna, məni azdıra bilməzsən; sən bu səhər birinci köhnə qəbiristanlığı, sonra da Şamaxı bazarını ziyarət etmisən. Seyid Əli İbrahim şahın hər şeydən bu cür xəbərdar olmasına təəccüb etdi və fürsəti fövtə verməmək qərarına gəldi:

- Xoşbəxtlikdən bu gün səhər köhnə qəbiristanlığa gedib valideynlərimin qəbrini ziyarət etməyim, sonra da bazarlığa çıxmağım artıq sizə məlumdur. Onda belə çıxır ki, addımbaşı təqib olunmağımdan, hətta gecələr evimizin daşa basılmağından da xəbərdarsınız.

- Xeyr, xeyr! Şair nə deyir? - deyə İbrahim Şah iri gözlərini yanında əyləşmiş müsəllimə, sonra da qazı həzrətlərinə ağartdı. Müsəllim Müqtədir Oğuz belə bir sualı gözləyirmiş kimi dərhal cavab verdi:

- Bəli, əlahəzrət, şair doğru deyir. Kimlərsə nə vaxtsa avam camaatın arasında söz yayıb ki, bəs, guya, Seyid Əli İmadəddin Nəsimi kafirdir. Nə deyim, müsəlman paxıllığı... göz götürməzlik...

Qazı Fəzli Fəridzadə papağını çıxarıb, əlindəki dəsmalla təmiz qırxılmış başının tərini sildi və İbrahim şahın ondan da cavab gözlədiyini görüb dedi:

- Bəli, elədir, əlahəzrət. Yəqin ki, Qaim Şirvani, Əhməd Kəsirəddin, Bəhluli...

İbrahim Şah onun sözünü kəsdi:

- Bəhluli kimdi?

- Şah sağ olsun, Şirvan şairlə doludur. Birdir, ikidir, ondur məgər? Kim ki, bir cüt qafiyə düzüb-qoşur, özünü şair hesab edir. Bu Bəhluli də onlardan biridir.

- Hə, sonra?

- Sonra da bu adamlar orda-burda, toyda-yasda hədyan danışırlar.

- Axı, nəyə əsasən?

- Eh, şahım, hər hansı bir şairin qəliz, ikibaşlı müəmmalı fikirlərini tərsinə yozmağa nə var ki...

- Yaxşı, - İbrahim şah dedi, - bəs indi buna bir əncam çəkmək üçün nə etmək lazımdır?

Müsəllim Müqtədir Oğuz cavab verdi:

- Əlbəttə, şairə xüsusi məmlük ayırmaq faydasız olar. Çünki camaat bir az da şübhələnər ki, ey dadi-bidad, gör şair nə ağır günah işləyb ki, hökumət ona bu cür mühafizə təşkil edib. Ən yaxşısı, xalq arasında həmin ağ yalanları ifşa etmək, puça çıxarmaq, bunun üçün də, onun Allahımızın, dinimizin, peyğəmbər əleyhissalamın qüdrətini vəsf edən şeirlərini oxumaq lazımdır.

İbrahim şah kinayə ilə dedi:

- Axı, biz məclislərə gedib, şeir oxumaqla camaatın fikrini dəyişənə qədər bir yaramaz pusqu qurub, şairə xətər yetirə bilər? İbrahim şah bunu deyib, qazı Fəzli Fəridzadənin üzünə baxdı. O da:

- Ya əlahəzrət, bu cür işlər Müqtədir Oğuzun səlahiyyətinə aiddir.

Müsəllim Müqtədir Oğuz, İbrahim şaha yüngülcə baş əyib, əlini qara qıvrım saçına çəkdi:

- Şah sag olsun, belə olduğu təqdirdə, mənə bir-iki gün vaxt verin. Şairin əleyhinə təbliğat aparanları və hətta ona cismani xətər yetirmək istəyənləri müəyyən edib, hüzurunuza çıxarım.

İbrahim şah özündən razı halda bığlarının ucunu burdu:

- Bu başqa məsələ.

Sonra o, üzünü Seyid Əli İmadəddin Nəsimiyə tərəf çevirdi - yəni ki, narahat olma, hər şey qaydasındadır və əlini qabağındakı uzun şüşə dayaqları olan iri nimçəyə uzadıb bir ovuc qara kişmiş götürdü və qapıda müntəzir dayanmış Fərruxa işarə verdi. Heç iki dəqiqə keçmədi ki, qırmızı və mavi rəngdə ipək çaxçux geyinmiş bir oğlan, bir qız əllərində ud, kanon içəri girdilər və yastı balıncların üstündə əyləşib, gözlərini İbrahim şaha zillədilər.

İbrahim şahın baş barmağının işarəsi ilə əvvəlcə oğlan udu dınqıllatdı, sonra da qız kanonu. Məclisdəkilərin feyziyab olduğunu görən İbrahim şah üzünü Seyid Əliyə tutdu:

- Hə, indi növbə sənindir, - dedi. - Baxaq görək, Şamaxının ortabab şairlərini nə ilə özüvə düşmən etmisən.

*(Ardı var)*

# Almaniyanın "Ostexperte" internet portalında Azərbaycanda dinlər və sivilizasiyalararası dialoqa dair reportaj yerləşdirilib

Almaniyanın "Ostexperte" internet portalında "Dinlər və sivilizasiyalararası dialoqdan əməkdaşlığa doğru" mövzusunda Berlində keçilmiş beynəlxalq konfrans haqqında reportaj yerləşdirilib.



AZƏRTAC xəbər verir ki, müəllif Urs Unkauf reportajda konfransın "Bakı Beynəlxalq dinlər və sivilizasiyalararası əməkdaşlıq Mərkəzi"nin, Azərbaycanın Almaniyadakı səfirliyinin, Almaniya-Azərbaycan Forumunun və Berlin Mədəni Diplomatiya Akademiyasının birgə təşkilatçılığı ilə keçirildiyini qeyd edib. Tədbirdə Azərbaycandan və Almaniyadan yüksək səviyyəli ictimai və siyasi xadimlərin, o cümlədən Qafqaz Müsəlmanları İdarəsinin sədri, "Bakı Beynəlxalq dinlər və sivilizasiyalararası əməkdaşlıq Mərkəzi"nin baş katibi Şeyxülislam Allahşükür Paşazadənin, Almaniya Bundestaqının üzvü, dini azadlıqlar üzrə federal hökumətin xüsusi müvəkkili Markus Qrübelin və səfir Ramin Həsənovun iştirak etdikləri bildirilib. Tunisin sabiq prezidenti Məhəmməd Mansof Marzukinin, dünyanın bir çox ölkələrindən gəlmiş müxtəlif dinlərin nümayəndələrinin, Bundestaqın, Almaniyada akkreditə olunmuş diplomatik korpusun və vətəndaş cəmiyyəti institutları təmsilçilərinin də konfransa qatıldıqları qeyd olunub.

Reportajda bildirilib ki, Azərbaycanın Almaniyadakı səfiri Ramin Həsənov mədəniyyətlər və sivilizasiyalar arasındakı dialoqun XXI əsrdəki qlobal dünyada sülh və əmin-amanlıq şəraitində birgəyaşayışı şərtləndirən amil olduğunu və multikulturalizmin Azərbaycan modelinin bir çox ölkələrin aparıcı universitet və tədqiqat institutları tərəfindən araşdırıldığını deyib. Səfir əhalisinin böyük əksəriyyətini müsəlmanlar təşkil edən Azərbaycanda katolik kilsələrinin və sinaqoqların bərpa olunmasına dövlət tərəfindən vəsait ayrıldığını diqqətə çatdırıb. XIX əsrin birinci yarısında Azərbaycana köç etmiş almanların, eləcə də Cənubi Qafqaz regionunda məskunlaşmış yəhudilərin bu ərazilərdə uzun müddət yaşamasının bugünkü tolerant və multikultural Azərbaycanın inkişafına töhfə verən mühüm amillərdən olduğu vurğulanıb.

Reportajda Almaniya Bundestaqının üzvü, dini azadlıqlar üzrə federal hökumətin xüsusi müvəkkili Markus Qrübelin çıxışında ilk dünyəvi müsəlman ölkəsi olan Azərbaycanın bu istiqamətdə xüsusi rolundan bəhs etdiyi, Xalq Cümhuriyyətinin qadınlara səsvermə hüququ verən ilk müsəlman ölkəsi olduğunu bildirməsi xüsusi vurğulanıb. M.Qrübelin Azərbaycanda yaşayan yəhudilərin heç vaxt ayrı-seçkiliyə məruz qalmadıqlarını, sıxışdırılmadıqlarını bildirdiyi nəzərə çatdırılıb.

Bildirilib ki, konfransda əsasən dinlər və sivilizasiyalararası dialoq və əməkdaşlıq, beynəlxalq dialoq və həmrəyliyə təhdid yaradan terrorizm, separatizm və ksenofobiya kimi amillər, irqi və dini dözümsüzlük, işğalçılıq, etnik təmizləmə siyasətinə məruz qalmış insanların, miqrantların, qaçqın və məcburi köçkünlərin problemləri, gənclərin maarifləndirilməsində, tarixi, mədəni və mənəvi irsin qorunmasında sivilizasiyalar və dinlərarası əməkdaşlığın rolu, dövlət, elm və din xadimlərinin dinlər və sivilizasiyalararası dialoqun və əməkdaşlığın təşviqində səylərinin birləşdirilməsinin əhəmiyyəti kimi məsələlər müzakirə edilib. Konfransın Berlin Bəyannaməsinin qəbul edilməsi ilə başa çatdığı vurğulanıb.

# Ermənistan tezliklə özünü müflis ölkə elan edə bilər

## Kütləvi etirazlara hərbçilər və müəllimlər də qoşuldular

Hakimiyyətə gəlməzdən öncə yeni hökumətin əhaliyə verdiyi əsas vədlərdən biri sosial-iqtisadi problemlərin həlli, yeni iş yerlərinin yaradılması ilə bağlı idi. Amma son vəziyyətin təhlili göstərir ki, iqtidar nəinki yeni iş yerləri açır, əksinə, olanları da bağlayır. Elə bu da Ermənistanda kütləvi narazılıq yaradır. Ölkədə bu xüsusda başlayan yeni çoxsaylı etiraz aksiyaları Ermənistanda gərgin vəziyyətin bundan sonra da davam edəcəyini göstərir.

### Diplomatik korpuslar bağlanır

Real vəziyyət göstərir ki, hökumət diplomatik korpusda genişmiqyaslı ixtisarlar aparmağı düşünür. "Jamanak" qəzeti bununla bağlı yazır ki, Ermənistan xaricdəki diplomatik nümayəndəliklərdəki əməkdaşlarının sayını azaldacaq. Məlumata görə, diplomatik korpuslardakı əməkdaşların 30 faizinin işdən çıxarılacağı bildirilib. Digər tərəfdən bəlli olub ki, Ermənistanın Danimarkadakı səfirliyi bağlanır. Bundan sonra Ermənistanın İsveçrədəki səfirliyi Danimarka, İsveç, Finlandiya, Norveç və İslandiya üzrə də diplomatik missiyanı yerinə yetirəcək.

Birləşdirilmiş səfirliyə Ermənistanın Danimarka və Norveçdəki səfiri Aleksandr Arzumyan başçılıq edəcək. Qeyd edək ki, bundan öncə Ermənistandakı nazirliklərin sayının da azaldılması haqqında qərar qəbul edilib. Belə ki, qərara əsasən, nazirliklərin sayı 17-dən 12-yə endirilməlidir.

Artıq Diaspor Nazirliyinin əməkdaşları qurumun ləğv edilməsi qərarına qarşı çıxırlar. Onlar yenidən hökumət binasının qarşısına toplaşaraq müddətsiz etiraz aksiyasına başlayıblar. Diaspor Nazirliyinin əməkdaşları baş nazir Nikol Paşinyanla görüş tələb edirlər. Bildirilir ki, ötən ilin sonlarında Diaspor Nazirliyi ləğv edilərək səlahiyyətləri Xarici İşlər Nazirliyinə verilib və nəticədə 700 nəfər işsiz qalıb. Onlar diaspordan aldıqları dəstəklə Paşinyana təsir göstərə biləcəklərini düşünürlər. Vergi ödəyiciləri isə başladıqları itaətsizlik aksiyaları çərçivəsində yolları bağlayıblar. Onlar hökumət qarşısında vergi qanunvericiliyinə edilən dəyişikliyin ləğvi tələbini qoyublar.

### Yerevan Dövlət Universitetinin 450 əməkdaşı işdən azad edilib

Ümumiyyətlə, Ermənistanda elə bir sahə yoxdur ki, orada problem yaranmasın. Belə bir vaxtda o da bəlli olub ki, Yerevan Dövlət Universitetinin 450 əməkdaşı işdən azad edilib. Bunu ali məktəbin əməkdaşı, elm və təhsil nazirinin keçmiş müavini Vaqram Mkrtçyan da təsdiq edib. Onun sözlərinə görə, buna dair bildiriş alıblar. Məlumata görə, işdən çıxarılmalar Ermənistan hökumətinin 2018-ci ilin dekabrın 27-də qəbul etdiyi qərar əsasında həyata keçirilib. Bildirişdə qeyd olunub ki, Yerevan Dövlət Universitetinin 450 əməkdaşı 2019-cu ilin martın 31-dən etibarən ali məktəbin işçisi statusunu itirəcək. Lakin işdən çıxarılanlar bununla razılaşmırlar. Yerevan Dövlət Universitetinin və başqa ali məktəblərin əməkdaşları fevralın 7-də unversitetdən "Respublika" meydanınadək etiraz yürüşü keçirməyə hazırlaşırlar.

### Taksi sürücüləri də üsyana qalxıblar

Ümumiyyətlə, inqilabsonrası Ermənistanda tam hərc-mərclikdir. Etiraz edənlər sırasında taksi sürücüləri də yer alıb. Taksiçilər lisenziyalaşma problemini həll etməyi tələb edirlər. Digər avtomobil sahibləri isə "cərimə özbaşınalığı"na qarşı mitinq edirlər.

Hərbi komissarlıqların əməkdaşları da üsyana qalxıblar, çünki burada "sistemin optimallaşdırılması"nın keçirilməsi ilə bağlı çoxları vəzifədən azad ediliblər. O da diqqətə çatdırılır ki, vətəndaş itaətsizliyi aksiyaları artıq iqtidar üçün ciddi əngəldir. Proseslər göstərir ki, Paşinyan durumu nəzarətdə saxlaya bilmir. Hazırda Ermənistanda geniş əhali kütləsi tərəfindən başlanan yeni etiraz aksiyaları fonunda getdikcə dramatikləşən hadisələr hakimiyyətin mövqeyini əhəmiyyətli dərəcədə zəiflətməkdədir. Yaranmış durum qarşıdakı günlər ərzində Ermənistanın daha böyük xaosa yuvarlanmasını qaçılmaz edir.

### Kilsələr də narazıdır

Məlumata görə, hələ bir müddət əvvəl Nikol Paşinyan Kilikiyə katolikosu I Arama erməni kilsəsində "inqilab" etməyi təklif edib. Din xadiminin bu təklifi qəbul etməməsi hökumət başçısının xoşuna gəlməyib.

Erməni mətbuatının yazdığına görə, bundan əvvəl yeni hökumətin nümayəndələri - hazırda parlamentin vitse-spikeri olan Lena Nazaryan və digər deputatlar I Arama bütün ermənilərin katolikosu II Qareginin yerinə keçməyi təklif ediblər. Bu məqsədlə ötən ilin avqustunda Livana səfər edən deputatlar Kilikiyə katolikosuna erməni kilsəsində "inqilab" etməyin zəruriliyini anlatmağa çalışıblar.

Jurnalistlər qeyd edirlər ki, bu yaxınlarda II Qareginə qarşı aqressiv hərəkətlər edən dəstəyə polisin müdaxilə etməməsi də hökumətin bu din xadiminə münasibətindən irəli gəlir. Bildirilir ki, I Aram nümayəndə heyətinin, həm də şəxsi görüş zamanı Paşinyanın təkliflərini rədd edib. Qəzetlər Livandakı erməni mənbələrin də bu məlumatı təsdiq etdiyini qeyd ediblər.

Belə vəziyyətdə dini icmaların yeni hökumətə qarşı narazılığının daha da artması müşahidə olunur. Vəziyyət belə davam edərsə, onlar etiraz aksiyaları keçirəcəklərini də bəyan ediblər.

Ermənistan Partiyasının parlament fraksiyasının rəhbəri Gevork Qorqisyan bildirir ki, hadisələr bu tempdə cərəyan edərsə, onda Ermənistanda "super baş nazir" sisteminin saxlanılması qəbuledilməz olacaq. Onun sözlərinə görə, güc strukturlarının baş nazirin tabeliyi altında olması doğru deyil: "Əgər güc strukturları baş nazirin rəhbərliyi altında qalsa, bu, faktiki olaraq onların parlamentə tabe olmaması deməkdir. Ermənistan referendum yoluyla artıq parlament idarəçilik sisteminə keçib. Belə ki, yeni hökumət bir il əvvələ qədər bu sistemi problem olaraq görürdü. İndi onlardan soruşmaq lazımdır ki, bu dövr ərzində onları özlərindən əvvəlkilərin mövqeyini qorumağa məcbur edən hansı dəyişiklik olub?".

Bütün bunlar Ermənistanda vəziyyətin yenidən qarışmaqda olduğunu göstərir.

**Elçin CƏFƏROV,**
**"Azərbaycan"**

Yeni nəşrlər

# Həyata sevginin və inamın gücü

Dünya şöhrətli neçə-neçə bəstəkar, rəssam, alim, aktyor öz həyat və fəaliyyəti ilə təsdiq edib ki, iradə, həyat eşqi və qurub-yaratmaq istəyi ilə bütün maneələri aşmaq, xarüqələr yaratmaq mümkündür. “Həyat əlilliyi olan insanların üzləşdikləri maneələr və məhdudiyyətlər üzərində qələbə çalaraq, böyük zirvələrə yüksəlmiş insanların timsalında daxili güc və qüdrətinin sərhədsizliyini təcəssüm etdirən parlaq nümunələrlə zəngindir”. Diqqətə çatdırdığımız fikirlər bu yaxınlarda işıq üzü görmüş “Əlillik qüsur deyil” kitab-albomunda əksini tapıb.
















## Kitab-albom iki dildə nəşr olunub

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən nəşr edilən kitab-albomda ümummilli lider Heydər Əliyevin fiziki məhdudiyyətli insanlara, onların sosial müdafiəsi və reabilitasiyasına diqqət və qayğısından, əlilliyi olan şəxslərin sosial təminatı, reabilitasiyası və cəmiyyətə inteqrasiyası sahəsində Prezident İlham Əliyevin tapşırığına əsasən atılan addımlardan, Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə bu istiqamətdə həyata keçirilən nəcib və xoşməramlı layihələrdən bəhs olunur. Nəşrdə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın sosial xidmət müəssisələrinin sakinlərinə qayğısı, onlarla keçirdiyi görüşlər də əks olunub.

Kitab-albomda incəsənətin müxtəlif növləri ilə məşğul olan, fiziki məhdudiyyətli olsalar da, daim özünə inam hissi ilə yaşayan, istedad və qabiliyyətləri ilə seçilən və bu bacarıqlarını daim inkişaf etdirməyə, təkmilləşdirməyə çalışan, ictimai-mədəni həyatda artıq özlərini uğurla təsdiq etmiş 60-a yaxın şəxs barədə məlumatlara və onların yaradıcılıq nümunələrinə yer verilib. Eyni zamanda, nəşrə ölkəmizdə yeni yaradılmış Boccia İdman Federasiyası və bu idman növünə maraq göstərən fiziki məhdudiyyətli insanlar, onların uğurları, ilk inklüziv ƏSA teatrı, onun qısa müddətdə əldə etdiyi nailiyyətlər, yaradıcı heyətinin peşəkar səviyyədə hazırladığı tamaşalar barədə oxucuya məlumatlar verilir. Diqqətə çatdıraq ki, 2016-cı ildə aktyor-rejissor Nihad Qulamzadə tərəfindən yaradılan ƏSA teatrının aktyor heyəti əsasən əlilliyi olan şəxslərdən ibarətdir. Teatr fəaliyyətə başladığı gündən Azərbaycan və dünya ədəbiyyatının ən yaxşı nümunələrini uğurla səhnələşdirir.

## Daxili güc və qüdrətin sərhədsizliyinin təcəssümü

Nəfis şəkildə tərtib olunan, foto-məlumatlarla zəngin 278 səhifəlik kitab-albomdakı mətnlər həm Azərbaycan, həm də ingilis dillərində təqdim edilib. Kitabın ərsəyə gəlməsi üçün 1500-dən çox foto çəkilib və arxiv sənədlərindən istifadə olunub. Kitab-albom fiziki məhdudiyyətli insan və onların yaradıcılıq nümunələri ilə yaxından tanışlıq imkanı verir. Kitabın qutusunun dizaynında əlilliyi olan şəxsin - Ramin Səfərlinin əl işindən fraqmentdən istifadə edilib.

“Əlillik qüsur deyil” kitab-albom Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin nəzdindəki sosial müəssisələrin istedadlı sakinlərinin yaradıcı fəaliyyətini, onların yaradıcılıq nümunələrini əks etdirən ilk belə nəşrdir. Nəşrdə təqdim olunan məlumatlar əlilliyin heç də bir qüsur və mənsub olduğun cəmiyyətin sıralarında uğurla addımlamaq üçün maneə olmadığı fikrini aşılayır. Fiziki məhdudiyyət üzərindən əzm və məharətlə adlayaraq öz uğur hekayəsinə çatmağı bacaran insanların timsalında bu fikir əyani şəkildə təsdiqini tapır.

Geniş oxucu kütləsi üçün nəzərdə tutulan kitab-albom xüsusilə əlilliyi olan yaradıcı insanların əl işlərinə maraq göstərən sənətsevərlər üçün böyük əhəmiyyət daşıyır. Kitabda qeyd olunduğu kimi, əlilliklə üzləşmək insanın öz bacarıq və qabiliyyətlərini reallaşdırması və cəmiyyətə təqdim etməsi, özü ilə başqaları arasındakı imkan fərqini asanlıqla aradan qaldırması, hətta tam sağlam adamlardan daha üstün keyfiyyətlərə malik olduğunu təsdiqləməsi üçün səddə çevrilə bilməz.

Kitabda xatırladılır ki, əlilliyi olan insanların cəmiyyətin digər fərdləri ilə bərabər imkanlara malik olması haqqında ilk mühüm beynəlxalq sənəd 1975-ci ildə BMT-nin Baş Məclisində qəbul edilib. Həmin sənəddə əlilliyi olan şəxslərlə sağlam şəxslərin mülki və siyasi hüquqları arasında heç bir fərq qoyulmaması və dövlət tərəfindən bunun təmin olunması xüsusi qeyd olunub. BMT-nin Baş Məclisi 1992-ci il tarixli digər mühüm sənəd ilə hər il dekabrın 3-ünün “Əlilliyi olan insanların Beynəlxalq Günü” kimi qeyd olunması haqqında Bəyannamə qəbul edib.

## Dünyaya bir də onların gözləri ilə baxsanız...

“Əlillik qüsur deyil” kitab-albomda vurğulanır ki, Azərbaycan da digər ölkələr kimi, BMT-nin Baş Məclisi tərəfindən 2006-cı ildə qəbul edilmiş “Əlilliyi olan şəxslərin hüquqları haqqında” Konvensiyaya qoşulub. Ölkəmizdə əlliliyi olan şəxslərlə bağlı qanunvericilik bazası bu Konvensiyanın prinsipləri əsasında təkmilləşdirilir. Bununla bağlı olaraq, “Əlilliyi olan şəxslərin hüquqları haqqında” Azərbaycan Respublikasının 2008-ci il 31 may tarixli Qanunu qəbul edilib.

Ölkəmizdə əlilliyi olan şəxslərin çoxu XX əsrin ən dəhşətli fəlakəti sayılan II Dünya müharibəsi, Qarabağ müharibəsi, ermənilərin həyata keçirdikləri soyqırımı və terror nəticəsində sağlamlıqlarını itiriblər. Kitabda əlilliyi olan şəxslərə dövlət qayğısı, onların reabilitasiyası və sosial vəziyyətlərinin yaxşılaşdırılması üçün həyata keçirilən tədbirlər barədə geniş söz açılıb.

Kitab-albom əsasında gələcəkdə əlilliyi olan yaradıcı şəxslərin elektron reyestrinin, həmçinin həmin reyestr əsasında fiziki məhdudiyyətli insanların əl işlərinin daha geniş miqyasda tanıdılması və satışı imkanlarının genişləndirilməsi üçün portalın yaradılması da nəzərdə tutulub.

“Əlillik qüsur deyil” kitab-albomda da vurğulandığı kimi, əlilliyi olan insanların bacarıq və qabiliyyətlərini nümayiş etdirən gözəl əsərlərini, onların həyata necə sevgi ilə bağlı olduqlarını gördükdə əlilliyin qüsur olmadığına bir daha əmin olursan. Kitabı ərsəyə gətirənlər inanırlar ki, oxucular bu nəşrdə izləyəcəkləri əlilliyi olan şəxslərin ecazkar incəsənət nümunələri, sənət əsərləri və həyatda əldə etdikləri uğurları ilə tanış olduqca onların daxili aləmləri və dünyaya baxışlarını daha dərindən anlayacaqlar: “Ümid edirik ki, bu dünyaya bir də onların gözləri ilə baxsanız, o zaman siz də bu insanları qəlbinizə yaxın hiss edəcək, sevgi və qayğı ilə əhatələyəcəksiniz”.

***Zöhrə FƏRƏCOVA, “Azərbaycan”***

# Ağdam, Tərtər və Füzuli rayonlarının qazlaşdırılması başa çatdırılıb

## On beş il əvvəl təbii qazla təminat ölkə üzrə 50 faiz səviyyəsində idisə, bu gün 95 faizdir

Respublikamızın hər yerində olduğu kimi, cəbhə bölgəsində yerləşən yaşayış məntəqələrində də infrastrukturun yaxşılaşdırılması, sosial layihələrin icrası, əhalinin sosial rifah halının yüksəldilməsi daim dövlətin diqqət mərkəzindədir.



Cəbhəyanı kəndlərdə əhalinin sosial problemlərinin həlli istiqamətində ardıcıl tədbirlər görülür, regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramları çərçivəsində, dövlət başçısının tapşırıq və sərəncamları ilə müxtəlif infrastruktur layihələri həyata keçirilir. Belə layihələrdən biri istehlakçıların fasiləsiz və keyfiyyətli təbii qazla təchiz edilməsi, yaşayış məntəqələrinin qazlaşdırılmasıdır. Bu istiqamətdə SOCAR-ın “Azəriqaz” İstehsalat Birliyi (İB) tərəfindən əvvəlki illərdə başlanılmış işlər 2018-ci ildə də davam etdirilib. “Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nın icrasının yekunlarına həsr olunan konfransda Prezident İlham Əliyev ölkənin qazlaşdırılmasından danışarkən bildirib ki, təbii qaz ilə təminat 15 il bundan əvvəl təxminən 50 faiz səviyyəsində idi, bu gün isə 95 faizdir. “...Ancaq, əlbəttə, bu, o demək deyil ki, bu, bizi qane edir. Elə kəndlər var ki, oraya hələ də qaz çəkilməyib. Ona görə bu proses davam etdiriləcək. Baxmayaraq ki, dünya miqyasında bu qədər qazlaşdırma aparan ölkələr o qədər də çox deyil. Yəni, biz son illər ərzində qazlaşdırma ilə bağlı əsas problemləri həll etdik. Əsas məsələ indi bu prosesi davam etdirmək və qazın keyfiyyətini artırmaqdır”.

AZƏRTAC xəbər verir ki, son beş ildə Qarabağ bölgəsində 39 yaşayış məntəqəsi qazlaşdırılıb. Təkcə yola saldığımız 2018-ci ildə Tərtər rayonunun Soyulan, Alışarlı, Aşağı Qapanlı, Hacallı, Rəcəbli, Kovdadıq, Bildirçinli, Umudlu kəndlərinə təbii qaz verilib, 428 fərdi ev “mavi yanacaq”la təmin edilib. Bundan əlavə, ötən il Ağdam rayonunun Mirzələr qış otlağı və Ergi adlanan ərazilərində Laçın, Ağdam və Şuşa rayonlarından olan məcburi köçkünlərin məskunlaşdığı iki qəsəbədə 468 fərdi ev qazlaşdırılıb. Görülən tədbirlər sayəsində Ağdam, Füzuli və Tərtər rayonlarının qazlaşdırılması başa çatdırılıb. Növbəti mərhələdə təbii qazla təmin olunan yaşayış məntəqələrində yeni yaşayış massivlərinin qazlaşdırılması məsələsi gündəmdə olacaq.

# Cinayət və cəza

## Cəlilabadda narkotiklərin qanunsuz satışının və dövriyyəsinin qarşısının alınması üçün ciddi tədbirlər görülür

Telefonun o başından sakit səslə danışan adamın səsi eşidilir: “Cənab rəis, İqbal Həsənov rayondadır, özü də ata evində”. Rəis zəng edən adamın adını, soyadını, yaşadığı ünvanı soruşaraq qarşısındakı dəftərçəyə qeyd edir. Rayon polis şöbəsinin rəisi Mübariz Quliyev elə o an müxtəlif kanallarla daxil olan məlumatların düzgün olub-olmadığını dəqiqləşdirdikdən sonra operativ şəkildə əməliyyat-istintaq qrupunun yaradılması haqqında göstəriş verib məsələni şəxsi nəzarətinə götürür.

Qrup üzvləri arasında iş bölgüsü aparılır, əməliyyat zamanı kimin nə edəcəyi müəyyənləşdirilir. Polis işçilərinin hər biri silahla, texniki vasitələrlə təmin olunur. Eyni zamanda, həmişə silahlı olan cinayətkarın qaça biləcəyi yerlər dəqiqləşdirilərək qabaqlayıcı tədbirlər görülür. Düşünülmüş, planlı şəkildə hazırlanmış əməliyyat nəticəsində İqbal Həsənov ələ keçirilir.

İqbal Həsənov külli miqdarda narkotik vasitələrin satışı və dövriyyəsi ilə məşğul olan və bunu özünə peşə seçən şəxsdir. İran İslam Respublikasının Cəlilabad rayonu ilə sərhədindən müxtəlif yollarla keçirilən narkotikləri muzdla tutduğu adamlar vasitəsilə müxtəlif ünvanlara çatdıraraq külli miqdarda çirkli pullar qazanır. O buna görə bir neçə dəfə cinayət məsuliyyətinə cəlb edilsə də, öz bəd əməlindən geri çəkilməmişdi. Yüzlərlə gəncin həyatını puç etdiyini düşünməyərək varlanmaq, böyük miqdarda pul toplamaq onun başlıca məqsədi olmuşdur. Elə buna görə də o, “narkobaron” kimi ad çıxarmışdı.

“Su sənəyi suda sınar”. İqbalın narkotik daşıyıcılarından olan Emin Həsənov böyük həcmdə narkotiklə cinayət başında yaxalanır. Bundan sonra cinayətkar qrup üzvləri arasında silahlı qarşıdurma yaranır. İstintaq altında yatan narkotik daşıyıcısı Eminin kriminal aləmdə “reket Şahin” kimi tanınan dayısı öz qardaşı Səxavət Həsənovla birlikdə bacıları oğlu Eminin cinayət işini yüngülləşdirmək məqsədilə İqbal və İlqar Həsənov qardaşlarından 150 min manat pul tələb edirlər. Məsələ ilə əlaqədar ilkin sövdələşmə baş tutsa da, sonradan razılaşma pozulur. Buna görə Eminin dayısı Şahin öz dəstəsi ilə birlikdə “narkobaron” İqbalın qardaşı İlqarı Bakıda döyür və ona işgəncə verir, yaranan münaqişə daha da gərginləşir.

Bundan sonra 2018-ci il iyun ayının 7-də gündüz saatlarında Cəlilabad şəhərində silahlı insident baş verir. Toqquşma zamanı İlqar Həsənovda “Kalaşnikov” avtomatı, Şahin Həsənovda “Vinçester” markalı ov tüfəngi və Səxavət Həsənovda “Makarov” tipli tapança olur. Amma Rayon Polis Şöbəsinin əməkdaşları hadisəni lokallaşdırmağı bacarırlar. Silahlı insidentlə əlaqədar polis mayoru Vüqar Şəbəndiyevin rəhbərliyi ilə yaradılan istintaq qrupu tərəfindən aparılan əməliyyat-axtarış tədbiri zamanı onların evində qumbara, müxtəlif markalı binokllu tüfənglər, güllələr, habelə soyuq silahlar - xəncərlər, dubinkalar, qılınc, beşbarmaq və s. aşkar olunaraq götürülür.

Digər bir fakt. 2018-ci il yanvarın 21-də Cəlilabad rayonunun Mikayıllı kənd sakini Ruslan Məmmədovda “Kalaşnikov” markalı avtomat silah aşkar edilir. İstintaq zamanı məlum olur ki, ona bu silahı Cəlilabad rayon sakini Füzuli İbişov satmışdır. 2018-ci il yanvarın 31-də F.İbişovun evində axtarış aparılır, 4 kiloqramdan artıq heroin, 7 kiloqrama yaxın həşiş qətranı aşkar edilərək götürülür. Bu zaman F.İbişov qaçıb gizlənir. Bir neçə aydan sonra, 2018-ci il sentyabrın 15-də paytaxtın Badamdar qəsəbəsində saxlanılaraq həbs olunur. Lənkəran Ağır Cinayətlər Məhkəməsinin qərarı ilə F. İbişov 13 il azadlıqdan məhrum edilir.

Cəlilabad şəhər Ş. İ. Xətai küçəsindəki 19 nömrəli evdə yaşayan “narkobaron” kimi tanınan Sidqi Novruzov da narkotik vasitələrin satışı ilə məşğul olduğundan məhkəmənin qərarı ilə azadlıqdan məhrum olunmuşdur. 2017-ci ilin iyun ayında onun yaşadığı evdən 2 kiloqram heroin, 500 qram tiryək aşkar edilmişdir.

2018-ci il avqustun 21-də Cəlilabad şəhərinin Qurtuluş küçəsindəki 16 nömrəli evdə yaşayan Fərhad Məlikovun mənzilində axtarış aparılarkən satış məqsədilə saxlanılan 3 kiloqram 700 qram tiryək aşkar olunaraq götürülmüşdür. Hazırda Lənkəran Ağır Cinayətlər Məhkəməsi tərəfindən onun da barəsində cinayət işinə baxılır.

Azər Hümbətov Cəlilabad şəhərinin N. Tusi küçəsindəki 12 nömrəli evdə yaşayıb. 2018-ci il sentyabrın 28-də polis işçiləri onun üstündən 50 qram heroin götürmüşlər. Hazırda o, həbsdədir və barəsində cinayət işi açılaraq istintaq aparılır.

Rayon polis şöbəsi bütün qüvvələri səfərbər edərək narkotiklərin satışı və qanunsuz dövriyyəsi, habelə istifadəçiləri ilə də mübarizə aparırlar. Tərtib edilmiş tədbirlər planına əsasən, texniki-peşə liseylərində, ümumtəhsil məktəblərində, ayrı-ayrı kollektivlərdə mütəmadi görüşlər təşkil olunur, “ağ ölüm”ün törətdiyi fəsadlarla əlaqədar mühazirələr oxunur, dialoqlar aparılır. Belə görüşlərə şəhər, qəsəbə, kənd inzibati ərazi nümayəndələri, yerli bələdiyyə sədrləri, aidiyyəti təşkilatların rəhbərləri, ağsaqqallar dəvət edilirlər. Təkcə ötən il 160-a yaxın belə görüşlər keçirilmişdir. Onu da qeyd edək ki, narkomanlığın, o cümlədən narkotiklərin qanunsuz satışının və dövriyyəsinin qarşısının alınmasında ictimaiyyət nümayəndələri, fəallar yaxından iştirak etməyə başlamışlar. Bunun nəticəsində 2018-ci ildə 75 fakt aşkar edilmişdir.

“Ağ ölüm” adlanan narkotiklər indi cəmiyyət üçün təhlükəli bəlaya çevrilmişdir. Narkotiklərin təsiri altında neçə-neçə cinayət hadisəsi baş verir, gənclər, demək olar ki, sağalmaz bəlaya düçar olur, ata-analar utanc hissindən həyatda özlərinə yer tapa bilmir, yeni qurulan gənc ailələr dağılır, uşaqlar atasız qalırlar.

Cəlilabad Mərkəzi Xəstəxanası narkoloji şöbəsinin həkimi Hilal Quliyev deyir ki, hazırda rayonda qeydiyyatda olanların sayı 825 nəfərdir. Bunlar rəsmiyyətə düşənlərdir. Düşməyənlərin sayı da az deyil. Gənclərin çoxu bu gün siqaret aludəçisidir. Bu isə onları sabah narkotik istifadəçisinə çevirə bilər. Odur ki, polis və digər inzibati orqanlarla yanaşı, cəmiyyətin hər bir üzvü belə halların qarşısının alınmasında fəallıq göstərməlidir. Müşahidələrdən məlum olur ki, harada ictimai qınaq, ictimai təsir güclüdürsə, orada narkomanlıq halları azdır və ya heç yoxdur. Bu baxımdan Cəlilabad rayonunda keçirilən görüşlər, disputlar və müzakirələr, şübhəsiz ki, öz müsbət təsirini göstərəcək.

***Seyran CAVADOV, “Azərbaycan”***

İdman

# Lider dəyişmədi: 2 qol, 2 qırmızı vərəqə

Futbol üzrə Azərbaycan Premyer Liqasında 15-ci tura start verildi. Fasilədən sonra turun mərkəzi matçı Tofiq Bəhramov adına Respublika Stadionunda “Qarabağ” və “Neftçi” komandaları arasında keçirildi. Ağdam təmsilçisinin favorit kimi göstərildiyi qarşılaşmaya “Neftçi” çempionatın lideri kimi çıxmışdı. Bu görüşdən qazanılacaq 3 xal “Qarabağ”ı liderliyə yüksəldəcəkdi.

- *Ağır təlim-məşq toplanışlarından sonra komandalarda yorğunluq hiss edilmirdi.*
- *Liderlik üçün qələbənin vacib olduğu matçda cəmi 1 dəyişiklik edən Qurban Qurbanovun risk etməyərək sanki heç-heçəyə oynaması diqqət çəkən məqamlardan biri idi.*
- *“Qarabağ” yarımmüdafiə və hücum xəttində, “Neftçi” isə müdafiədə çətinliklər çəkdi.*
- *“Neftçi”nin yeganə zəif bəndi Anton Krivotsyuk, “Qarabağ”da isə qapıçı Şahrudin Məhəmmədəliyev idi.*
- *“Qarabağ”da Qara Qarayev, “Neftçi”də isə Anton Krivotsyuk qırmızı vərəqə ilə cəzalandırıldılar.*
- *“Neftçi”nin yeni transferləri yunanıstanlı Vangelis Platellas və seneqallı Mamadu Mboc çox yaxşı təsir bağışladılar.*
- *Fevralın 8-də Azərbaycanda “transfer pəncərəsi” bağlanır.*

Oyuna meydan sahibləri daha sürətli başladılar. Əsasən sol cinahdan qurulan hücumlara üstünlük verən “Qarabağ”da “yeni-köhnə” transfer Almeydanın fəallığı daha çox hiss olunurdu.

Görüşün 6-cı dəqiqəsində “Neftçi”nin müdafiə xəttinin mərkəzindəki boşluqdan məharətlə istifadə edən Dani Kintana qapıçı ilə dueldən qalib ayrılaraq “Qarabağ”ı hesabda irəli çıxardı. Altı aydır zədə ucbatından yaşıl meydanlardan uzaqda qalan “Neftçi”nin kapitanı Ruslan Abışovun müdafiə xəttində yeri hiss olunurdu.

Qoldan sonra tədricən qısa ötürmələrə üstünlük verərək meydançanın mərkəzində nəzarəti ələ keçirən “Neftçi” “Qarabağ”ın qapısı qarşısında təhlükəli epizodlar yaratmağa başladı. Belə epziodların birində “ağ-qaralar”ın yeni transferi Mamadu Mboc küncdən ötürülən topu baş zərbəsi ilə qapıdan keçirdi.

Fasilədən sonra iki komandanın hər biri qırmızı vərəqə ilə cəzalandırıldı. Lakin qol vurmaq üçün imkanlar olsa da, qapılardan top keçmədi.

Turun digər matçında “Qəbələ” doğma meydanda “Sumqayıt”la qarşılaşıb. Görüş meydan sahiblərinin 1:0 hesablı qələbəsi ilə yekunlaşdı. Digər qarşılaşmalarda aşağıdakı nəticələr qeydə alındı:

“Zirə”-”Sabah” - 0:2; “Keşlə”-”Səbail” - 0:3.

15 turdan sonra yarış cədvəlində vəziyyət belədir:

| N | Klublar | O | Q | H | M | T-F | X |
|---|---|---|---|---|---|---|---|
| 1 | Neftçi | 15 | 10 | 4 | 1 | 27-11 | 34 |
| 2 | Qarabağ | 15 | 9 | 4 | 2 | 33-15 | 31 |
| 3 | Səbail | 15 | 7 | 3 | 5 | 19-14 | 24 |
| 4 | Sabah | 15 | 6 | 2 | 7 | 14-20 | 20 |
| 5 | Qəbələ | 15 | 5 | 5 | 5 | 18-18 | 20 |
| 6 | Sumqayıt | 15 | 4 | 3 | 8 | 13-21 | 15 |
| 7 | Keşlə | 15 | 3 | 3 | 9 | 16-26 | 12 |
| 8 | Zirə | 15 | 2 | 4 | 9 | 12-27 | 10 |

***E.CƏFƏROV, “Azərbaycan”***

# TENDER ELANI

***Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən təsərrüfat və azqiymətli malların satın alınması üzrə elan edilmiş açıq tender, Tender komissiyasının 31 yanvar 2019-cu il tarixli qərarı ilə "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun 11.1-ci maddəsinə uyğun olaraq baş tutmamış hesab edilmişdir.***

## "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası

### Qanununa müvafiq olaraq yenidən təsərrüfat və azqiymətli malların satın alınması üzrə

### *açıq tenderin keçirilməsi elan olunur*

Tender proseduru 29 mart 2019-cu il tarixdə saat 15:00-da Azərbaycan Respublikası Mərkəzi Bankının inzibati binasında (Bakı şəhəri, R.Behbudov küçəsi 90) keçiriləcəkdir.

**Tenderdə iştirak etmək üçün iddiaçı aşağıdakı sənədləri təqdim etməlidir:**

- *tenderdə iştirak üçün ərizə;*
- *iddiaçının hüquqi statusunu əks etdirən hüquqi sənədlərin (nizamnamə, dövlət qeydiyyatı haqqında şəhadətnamə və ya reyestrdən çıxarış) notariat qaydasında təsdiq edilmiş surətləri;*
- *tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd;*
- *iki nüsxə Azərbaycan dilində tender təklifi (tender təklifi 13 may 2019-cu il tarixədək qüvvədə olmalıdır);*
- *tender təklifi qiymətinin 1 (bir) faizi məbləğində bank təminatı (əsas şərtlər toplusuna əlavə edilən bank qarantiyası formasında);*
- *iddiaçının son 1(bir) ildəki maliyyə vəziyyəti barədə bank arayışı;*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq dövlət orqanından arayış;*
- *iddiaçının son 2 (iki) il ərzində təsərrüfat və azqiymətli malların satışı sahəsində təcrübəsinin olması və əsas korporativ müştəriləri barədə məlumatlar. Son 2 (iki) il ərzində xidmət göstərilən müştərilərin adları və göstərilən işlərin açıqlaması verilməlidir;*
- *tenderin əsas şərtlər toplusunda iddiaçının ixtisas uyğunluğuna dair tələb olunan digər məlumat.*

**İddiaçı tender təklifini** və tender təklifinin bank təminatını ən geci **28 mart 2019-cu il saat 18:00-a qədər** möhürlənmiş, imzalanmış, yazılı surətdə ikiqat zərfdə, digər tələb olunan sənədləri isə ən geci **12 mart 2019-cu il saat 18:00-a** qədər möhürlənmiş, imzalanmış, yazılı surətdə bağlı zərfdə Mərkəzi Bankın Bakı şəhəri, R.Behbudov küçəsi, 90 ünvanında yerləşən inzibati binasına təqdim etməlidir. Göstərilən vaxtdan gec təqdim olunmuş zərf və sənədlər açılmadan geri qaytarılacaq və iddiaçı tenderdən kənarlaşdırılacaqdır.

**Satınalmaya başlanma vaxtı:** satınalma müqaviləsi imzalandığı gündən.

**Malların təqdim edilmə müddəti:** satınalma müqaviləsi imzalandığı gündən sifariş əsasında 1 (bir) il müddətində.

**Qiymətləndirmə meyarları:** maliyyə amili və korporativ müştərilərin sayı.

**Tenderdə iştirak etmək istəyən iddiaçılar** Mərkəzi Bankın Bakı şəhəri, R.Behbudov küçəsi, 90 ünvanında yerləşən inzibati binasından Azərbaycan dilində tərtib edilmiş tenderin əsas şərtlər toplusunu əldə edə bilərlər.

**Tender üzrə əlaqələndirici şəxslər:**
Elvin Şirdanov (Hüquq departamenti).
Telefon: 493-11-22, daxili (428)
Zöhrab Səfərəliyev (İnzibati departament).
Telefon: 493-11-22, daxili (101).

***Tender komissiyası***

# İqtisadiyyat Nazirliyinin Sahibkarlığın İnkişafı Fondu

### "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq dəftərxana mallarının alınması məqsədilə

### *kotirovka sorğusu elan edir*

İddiaçılar satınalma prosedurunun predmetinə uyğun hazırlanmış əsas şərtlər toplusunu İqtisadiyyat Nazirliyinin Sahibkarlığın İnkişafı Fondundan əldə edə bilərlər.

Təkliflər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalı və 15 fevral 2019-cu il tarixdə saat 15:00-dək təqdim edilməlidir.

**Ətraflı məlumat almaq üçün əlaqələndirici şəxs: Əyyub Abdullayev**
**Ünvan: Bakı şəhəri, Yasamal rayonu, A.M. Şərifzadə küçəsi, 172**
**Telefon: (012) 310 23 02**
**Fax: (012) 432 37 17**
**e-mail: info@edf.gov.az**

***Tender komissiyası***

# İqtisadiyyat Nazirliyinin Sahibkarlığın İnkişafı Fondu

### "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, zəruri texnika və avadanlıqların alınması üzrə

### *kotirovka sorğusu elan edir*

İddiaçılar satınalma prosedurunun predmetinə uyğun hazırlanmış əsas şərtlər toplusunu İqtisadiyyat Nazirliyinin Sahibkarlığın İnkişafı Fondundan əldə edə bilərlər.

Təkliflər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalı və 08 fevral 2019-cu il tarixində saat 12:00-dək təqdim edilməlidir.

**Ətraflı məlumat almaq üçün əlaqələndirici şəxs: Anar Əsgərov**
**Ünvan: Bakı şəhəri, Yasamal rayonu, A.M. Şərifzadə küçəsi, 172**
**Telefon: (012) 310 23 02**
**Fax: (012) 432 37 17**
**e-mail: info@edf.gov.az**

***Tender komissiyası***

# "Təmiz Şəhər" Açıq Səhmdar Cəmiyyəti

### tikinti materiallarının satın alınması ilə əlaqədar

### *açıq tender elan edir*

Tender 1 LOT üzrə keçirilir:
***Tikinti materiallarının satın alınması.***

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu "Təmiz Şəhər" ASC Bakı şəhəri, Xocalı prospekti 55 ünvanında yerləşən ofisindən əldə edə bilərlər. Əlaqələndirici şəxs - Tural Qüdrətov (telefon 012 - 464 41 11)

İştirak haqqı **400** manat.

**AZN hesabı**
**Benefisiarın adı: Dövlət Xəzinədarlığı Agentliyi**
**Hesab nömrəsi: AZ07CTRE00000000000004587901**
**SWIFT: CTREAZ22**
**VÖEN: 1401555071**
**Kod: 210005**
**Müxbir hesab: AZ41NABZ01360100000000003944**
**Xəzinə hesab kitabın (XHK) nömrəsi: 4587901**
**Fond: 7**
**İqtisadi təsnifat kodu: 142340**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

1. *Tenderdə iştirak etmək üçün yazılı müraciət;*
2. *İddiaçının tam adı hüquqi statusu, nizamnaməsi qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
3. *Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
4. *Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı **30** bank günü qüvvədə olmalıdır);*
5. *Tender təklifi dəyərinin 1%-i həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı **60** bank günü qüvvədə olmalıdır);*
6. *Vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
7. *Dövlət Sosial Müdafiə Fondundan arayış;*
8. *İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
9. *Müəssisənin təcrübəsi haqqında məlumat;*
10. *İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının (Mənfəət vergi bəyannaməsi) surəti;*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **11 mart 2019-cu il** tarixinə qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə **19 mart 2019-cu il,** saat 12:00-a qədər "Təmiz Şəhər" ASC-nin Xocalı prospekti, 55 ünvanında yerləşən ofisinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **27 mart 2019-cu il,** saat 17:00-da Bakı şəhəri, Xocalı prospekti 55 ünvanında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

# BİLDİRİŞ

"Bakı Metropoliteni" QSC tərəfindən 09.01.2019-cu il tarixdə keçirilmiş 1 LOT üzrə "Bakımetrolayihə" institutu üçün kompüter avadanlıqlarının açıq tender üsulu ilə satın alınmasına dair müsabiqədə "Bakinity Distribution" MMC qalib elan olunmuşdur. Qalib gəlmiş təşkilat ilə LOT-1 üzrə 28.01.2019-cu il tarixdə ƏDV daxil 191471,52 (yüz doxsan bir min dörd yüz yetmiş bir manat 52 qəpik) manat məbləğində müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

# BİLDİRİŞ

"Azərbaycan İnvestisiya Şirkəti" Açıq Səhmdar Cəmiyyətinin 2018-ci il üçün Azərbaycan Respublikasının vergi qanunvericiliyinə uyğun hazırlanmış vergi bəyannamələrinin auditi üzrə xidmətlərin kotirovka üsulu ilə satın alınmasını həyata keçirir.

Maraqlanan şirkətlər (+994 12) 488-80-10 telefon nömrəsi ilə əlaqə saxlaya bilər.

Kotirovka sorğusunda iştirak etmək üçün sənədlər 07.02.2019-cu il saat 17:00-dək qəbul olunur.

***Tender komissiyası***

# Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası

### "Azərbaycan Respublikasında fəaliyyət göstərən maliyyə institutlarının rəhbərləri və digər mühüm vəzifə sahibləri üçün Avropa Direktivlərinə uyğun peşə tələblərinin və onların ölçülməsi alətləri barədə tövsiyələrin hazırlanması" xidmətinin satın alınması məqsədilə kotirovka sorğusunun nəticələri barədə

### ELAN

Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası tərəfindən 08.01.2019-cu il tarixdə keçirilmiş "Azərbaycan Respublikasında fəaliyyət göstərən maliyyə institutlarının rəhbərləri və digər mühüm vəzifə sahibləri üçün Avropa Direktivlərinə uyğun peşə tələblərinin və onların ölçülməsi alətləri barədə tövsiyələrin hazırlanması" xidmətinin kotirovka sorğusu üsulu ilə satın alınmasına dair müsabiqədə polşalı mütəxəssis Mariola Szymanska - Koszczyc ƏDV daxil olmaqla 34.500,00 (otuz dörd min beş yüz) manat məbləği ilə qalib elan olunmuşdur. Qaliblə müvafiq satınalma müqaviləsi imzalanmışdır.

Palata sorğuda iştirak etmiş digər şirkətlərə təşəkkür edir və fəaliyyətlərində uğurlar arzulayır.

***Tender komissiyası***

# Beynəlxalq aləm

## Türkiyədə PKK-nın 75 terrorçusu məhv edildi



Türkiyə təhlükəsizlik qüvvələri həm ölkə ərazisində, həm də xaricdə PKK terrorçularına qarşı effektiv mübarizə aparır. Bu barədə "Anadolu" agentliyi xəbər verir.

Ötən ay ölkədə keçirilmiş antiterror əməliyyatları nəticəsində PKK-nın 75 silahlısı zərərsizləşdirilmişdir. Antiterror əməliyyatlarını Silahlı Qüvvələr, Daxili İşlər Nazirliyi, jandarma qüvvələri və Milli İstixbarat Təşkilatı həyata keçirir.

Əməliyyatlar zamanı təhlükəsizlik qüvvələrinin 1 əməkdaşı həlak olmuş, 3-ü yaralanmışdır. Həmçinin bir dinc sakin xəsarət almışdır. Terrorçu təşkilatın fəaliyyətində iştirak edən 350 nəfər saxlanmışdır. Onlardan 108-i həbs edilmişdir.

## Baham adalarının yaxınlığında miqrant gəmisi batdı



Baham adalarının yaxınlığında haitili miqrantları daşıyan mühərrikli qayıq batmışdır. Nəticədə 28 nəfər həlak olmuş, 17 nəfər sahil mühafizəsi əməkdaşları tərəfindən xilas edilmişdir. Qaçqınların bir neçəsi tibbi yardım almaq üçün yerli xəstəxanalara göndərilmişdir.

Əhalisi 10,6 milyon nəfər olan Haiti Qərb yarımkürəsinin ən yoxsul ölkəsi hesab olunur.

## Pentaqon cənub sərhədinə minlərlə əsgər göndərir

ABŞ Müdafiə Nazirliyi Meksika ilə sərhədin cənub-qərb hissəsinə 3750 hərbçi göndərəcək. Hökumət bu əsgərlərin hesabına sərhəd və gömrük nəzarətini gücləndirmək niyyətindədir. Hazırda sərhəddə 600 hərbi qulluqçu xidmət edir. Bu barədə CNN telekanalı Pentaqonun mətbuat xidmətinə istinadən xəbər verir.

Məlumata görə, Meksika ilə sərhəddə hərbi kontingentin təxminən altı dəfə artırılması üç ay müddətinə planlaşdırılır. Bu il ABŞ sərhəd keçid məntəqələri arasında 240 kilometrlik tikanlı məftil çəkmək niyyətindədir.

Bundan əvvəl ABŞ Prezidenti Donald Tramp cənub sərhədində divar inşası barədə məlumat vermişdi. O vəd etmişdi ki, yeni tikili ilə yanaşı, mövcud hasarlar yenidən qurulacaq. Trampın dediyinə görə, hər bir sağlam düşüncəli adam son bir il ərzində qətl cinayətlərinin 33 faiz artdığı bir ölkədən hasarla ayrılmaq istər.

*"Azərbaycan" qəzetinin 2019-cu il 3 fevral tarixli 27 (8050) nömrəsində çap olunmuş "Tibbi sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 28 dekabr tarixli 1441-VQD nömrəli Qanununun tətbiqi və "Tibbi sığorta haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 30 dekabr tarixli 241 nömrəli Fərmanının ləğv edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 31 yanvar tarixli Fərmanının 6.4-cü və 6.7-ci bəndlərində "Azərbaycan Respublikasının Dövlət" sözləri "Azərbaycan Respublikası Prezidentinin" sözləri kimi oxunsun.*

# ALLAH RƏHMƏT ELƏSİN!

Eldar Əzizov Eldar Məmmədova anası

**SƏKİNƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Təlatüm və Böyükağa Quliyevlər VİP Aviasiya Xidmətləri Şirkətinin baş direktoru İlham Şükürova anası

**ƏMİNƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Prokurorluğunun kollektivi prokurorluğun veteranı

**ABBAS MƏMMƏDOVUN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

"Azərbaycan Meliorasiya və Su Təsərrüfatı" ASC-nin rəhbərliyi və kollektivi meliorasiya və su təsərrüfatı sahəsinin veteranı

**MƏDAİL VƏLİ OĞLU İMAMƏLİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

"Azərbaycan Meliorasiya və Su Təsərrüfatı" Açıq Səhmdar Cəmiyyətinin "Azdövsutəslayihə" İnstitutunun rəhbərliyi və kollektivi Tikilməkdə olan Meliorasiya və İrriqasiya Obyektlərinin Birləşmiş Müdiriyyətinin baş mühəndisi Xosrov İmaməliyevə qardaşı

**MƏDAİL İMAMƏLİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az_reklam@azeronline.com
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1
"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet
Tiraj 8356
Sifariş 391
Qiyməti 40 qəpik